

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 SENTYABR 2019-cu il ŞƏNBƏ № 201 (6528) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Məlahət Əsədova dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər.

**Prezident İlham ƏLİYEV:** Bu məktəb əsaslı təmir olunub?

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOV:** Xeyr, sökülüb, yenidən tikilib. Üç il fəaliyyətsiz olub.

Bildirildi ki, məktəbin binası 1938-ci ildə istifadəyə verilmişdi. O zaman 360 yerlik binada ümumilikdə 2 növbədə 800 şagird təhsil alırdı. Bu təhsil ocağı qəzalı vəziyyətdə olduğundan fəaliyyətini dayandırıb və müvəqqəti olaraq 140 saylı tam orta məktəbdə fəaliyyət göstərib. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən, 2019-cu ilin mayında məktəbin mövcud binası sökülərək yerində yenisi inşa olunub. 360 şagird yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub. Bir sözlə, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri, müəllimlərin isə pedaqoji fəaliyyətlə yüksək səviyyədə məşğul olmaları üçün hərtərəfli imkanlar var.

Qeyd edildi ki, məktəbdə hazırda 320 şagirdin təlim-tərbiyəsi ilə 31 nəfərdən ibarət pedaqoji kollektiv məşğuldur. Son 10 ildir ki, məktəbin şagirdlərinin 70-80 faizi ali təhsil ocaqlarına qəbul olur. Şagirdlər müxtəlif bilik, idman yarışlarında, olimpiadalarda təhsil ocağını layiqincə təmsil edirlər. Bu təhsil ocağının 10-cu sinif şagirdi güləş üzrə Avropa çempionudur.

**(davamı 3-cü səhifədə)**

## Ağsu rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Baş vermiş zəlzələ nəticəsində Ağsu rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,0 (iki) milyon manat Ağsu Rayon İcra Hakimiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 sentyabr 2019-cu il.**

## Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Su Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 3, maddə 135; 1999, N 8, maddə 476; 2002, N 5, maddə 237; 2003, N 1, maddə 10; 2004, N 2, maddə 57; 2006, N 11, maddə 923; 2007, N 5, maddə 436, N 10, maddə 938; 2008, N 2, maddə 47; 2015, N 2, maddə 72, N 4, maddə 357; 2017, N 9, maddə 1631; 2019, N 1, maddə 20) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 18-ci maddə üzrə:

*1.1.* birinci hissənin onuncu abzasına "qaydalarını" sözündən sonra ", sudan istifadəyə görə güzəşt və azadolmaları" sözləri əlavə edilsin;

*1.2.* aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Sudan istifadəyə görə güzəşt və azadolmalar yalnız təbii su mənbələrindən aşağıdakı məqsədlərlə götürülən suya görə tətbiq edilir:

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) emal edilməmiş su ilə təmin edilməsi;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən içməli su təchizatı;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektrik enerjisinin istehsalı üçün sudan istifadə edilməsi.".

**2.** 44-cü maddənin birinci hissəsinin yeddinci abzasından "sudan istifadəyə və" sözləri çıxarılsın və həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla, sudan istifadəyə görə haqq ödənilmədikdə;".

**3.** 45-ci maddənin birinci hissəsinin doqquzuncu abzasına "sudan istifadə haqqını" sözlərindən əvvəl "bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

**4.** 80-ci maddə üzrə:

*4.1.* birinci hissəyə "su obyektlərindən" sözlərindən sonra "tələb olunan həcmdə və ödənişsiz" sözləri əlavə edilsin;

*4.2.* aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Yanğından mühafizə ehtiyacları üçün götürülmüş sudan və bu suyun saxlanıldığı obyektlərdən təyinatdankənar istifadə edilməsi qadağandır.".

**5.** 96-cı maddənin birinci hissəsinin ikinci abzasına "sudan" sözündən, üçüncü abzasına "su obyektlərindən" sözlərindən əvvəl "bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

**6.** 97-ci maddənin birinci hissəsində "Məcəllə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla" sözləri "Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri ilə əvəz edilsin.

**7.** 98-ci maddənin üçüncü hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 iyul 2019-cu il.**

## Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Şərur Sənaye Məhəlləsi yaradılsın.

**2.** Müəyyən edilsin ki:

*2.1.* mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Şərur Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır;

*2.2.* Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi, idarə olunması və inkişafı ilə bağlı tədbirləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi idarəedici təşkilat həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*3.1.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.2.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.3.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

*4.1.* Şərur Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

*4.2.* Şərur Sənaye Məhəlləsində istehsal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin;

*4.3.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə ilkin olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 5-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**7.** "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 10, maddə 1173) aşağıdakı dəyişikliklər edilsin:

*7.1.* 1.3-cü bəndə "İqtisadiyyat Nazirliyi" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)" sözləri əlavə edilsin;

*7.2.* 1.4-cü bəndə "Açıq Səhmdar Cəmiyyətinə" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)" sözləri əlavə edilsin;

*7.3.* 3-cü hissəyə "İqtisadiyyat Nazirliyi" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələrinə münasibətdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti)" sözləri əlavə edilsin.

**8.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 sentyabr 2019-cu il.**

# Prezident İlham Əliyev Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

**Sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Təhsil naziri Ceyhun Bayramov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, Təhsil Nazirliyi və Koreya Respublikasının "KT Konsorsium" şirkəti arasında imzalanan saziş əsasında 2016-cı ildə yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyaclarına hazır rəqabətqabiliyyətli kadrlar hazırlığını həyata keçirən peşə təhsili müəssisəsidir.

Mərkəzdə sənaye qurumlarında istehsal proseslərini təşkil edən və innovativ texnologiyalarla işləmək bacarığına malik olan mütəxəssislərin hazırlanması nəzərdə tutulur.





Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə yaxından tanış oldu.

Bildirildi ki, Mərkəz Koreya Respublikasının peşə təhsili modeli əsasında qurulub. Mərkəzdə nəzəri və praktiki bacarıqların formalaşdırılması üçün bütün şərait yaradılıb. Burada təhsil alanlara avtomobilə texniki xidmət göstərməkdən tutmuş İKT-nin yenilikləri əsasında formalaşan modellər öyrədiləcək. Ən müasir maddi-texniki baza ilə təchiz edilən mərkəz 8 fərqli ixtisas üzrə 1 illik proqramlarda təhsil almaq imkanını nəzərdə tutur. Tədris prosesi tam yeni formatda Koreyada təlim keçmiş ixtisaslı mütəxəssislər tərəfindən təşkil olunacaq. Bu ixtisaslar üzrə təhsilini başa vuran tələbələr üçün davamlı təhsil və geniş iş imkanları yaradılacaq. Onlar öz ixtisaslarını praktiki şəkildə reallaşdırmaq bacarıqları və vərdişlərinə yiyələnəcəklər. Səkkiz texniki ixtisasla yanaşı, Mərkəzdə qısamüddətli ixtisasartırma kursları da təşkil olunacaq. Həmçinin tələbələr beynəlxalq sertifikatlı kurslarda iştirak edə biləcəklər.

Bu cür peşə məktəblərinin istifadəyə verilməsi ali məktəblərə qəbul ola bilməyənlər üçün çox mühüm əhəmiyyət kəsb edir. Ali məktəbə qəbul ola bilməyən məzun belə peşə məktəbinə daxil olmaqla peşə vərdişlərinə yiyələnərək gələcəkdə istədiyi sahədə çalışa bilər. Bu cür layihələrin icrası peşə təhsilinin inkişafına töhfə verməklə yanaşı, məşğulluğun artırılmasında da mühüm rol oynayır.



Dövlət peşə təhsili müəssisələrinin büdcədənkənar gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasının təmin edilməsi və peşə təhsilinin inkişafında maliyyələşmə mexanizmi rolunu oynamasının həyata keçirilməsi məqsədilə Peşə Təhsilinin İnkişafı Fondu yaradılıb, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktlar hazırlanıb. Peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçirilən peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və optimallaşdırılması, müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

2018-ci ildə regionlarda və Bakıda fəaliyyət göstərən 55 peşə təhsili müəssisəsinin bazasında 24 Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Qeyd olunan istiqamətdə daha iki mərkəzin yaradılması nəzərdə tutulub. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi artıq publik hüquqi şəxs statusu alıb. Digər Peşə Təhsil mərkəzlərinin də publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsi istiqamətində hazırlıqlar gedir. Bununla yanaşı, "Azərbaycan peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə ilkin mərhələdə 2020-ci ilədək müxtəlif istiqamətli 10 pilot peşə təhsil müəssisəsinin qurulması hədəf kimi müəyyənləşdirilib. Strateji Yol Xəritəsinə əsasən, pilot peşə təhsili müəssisələrinin müasir standartlara cavab verməsi və tələbata uyğun fəaliyyət göstərməsi üçün onların əsaslı təmiri və ya yeni peşə təhsili müəssisələrinin tikintisi nəzərdə tutulur. Dövlətimizin başçısının Sərəncamına əsasən, 2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasında və işlək peşə təhsili modelinin qurulmasında işəgötürənlərlə birgə əməkdaşlıq bu sahənin inkişafı üçün mühüm önəm kəsb edir. Ümumilikdə bu il ərzində peşə təhsili müəssisələrinin 420 nəfərlik mühəndis-pedaqoji heyəti üçün 29 təlim həyata keçirilib. Peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN xidmət" mərkəzlərində, "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə isə müvafiq peşə təhsili müəssisələrində ödənişsiz şəkildə və elektron qaydada həyata keçirilib.



Bütün bunlar isə peşə təhsili sahəsinə birbaşa müsbət təsir göstərməklə özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açır.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Bakıda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yenidənqurma tədbirləri barədə məlumat verdi.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 mart tarixli müvafiq Sərəncamına əsasən Bakının Nərimanov rayonu ərazisində şəhər əhəmiyyətli Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb və bu işlər qısa müddətdə yüksək səviyyədə yerinə yetirilib. Molla Cümə küçəsində, Həsən Əliyev və Yusif Vəzir Çəmənzəminli küçələrinin bir hissəsində, həmçinin Molla Cümə və Əhməd Rəcəbli küçələrini birləşdirən yollarda yeni və müasir yol infrastrukturu yaradılıb. Yenidən qurulan yolların ümumi uzunluğu 6 kilometrdir.



Paytaxtda yeni yolların salınması, yolötürücülərin, yeraltı və yerüstü piyada keçidlərinin, çoxmərtəbəli avtomobil dayanacaqlarının layihələndirilməsi və tikilməsi, mövcud yol qurğularının təmiri və yenidən qurulması sahəsində silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər görülən işlər nəticəsində paytaxtda və ətraf qəsəbələrdə yeni alternativ yol infrastrukturları formalaşdırılıb, şəhərin mərkəzindən bir sıra istiqamətlərə, o cümlədən ətraf qəsəbələrə rahat və sürətli gediş-gəliş təmin edilib, müəyyən qisim yollarda avtomobillərin hərəkətində məhdudiyyətlər və ləngimələr aradan qaldırılıb, bəzi yolların buraxılış qabiliyyəti artırılıb, yoldan istifadə asanlaşıb, paralel yeni yollar açılıb və sair irəliləyişlərə nail olunub. Ümumilikdə, 2003-cü ildən bəri respublikamızda 16 min kilometrdən çox avtomobil yolu yenidən qurulub, bərpa və təmir edilib. Bunun 500 kilometrdən çox hissəsi 2019-cu ilin 8 ayında reallaşdırılıb. Bu ilin sonuna ölkəmizdə yenidən qurulan, bərpa və təmir edilən yolların uzunluğu 17 min kilometrdən çox olacaq. 2003-cü ildən bəri təkcə Bakıda avtomobil yollarının 1500 kilometrdən çox hissəsində yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib. Bunun 200 kilometrdən çoxu 2019-cu ilin 8 ayında reallaşdırılıb.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub

(əvvəli 1-ci səhifədə)

Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sferada innovativ üsulların tətbiqi məsələsinə daim xüsusi diqqətlə yanaşılır. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bu isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmasında mühüm rol oynayır.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm. Sizə uğurlar arzulayıram.







**Məlahət ƏSƏDOVA:** Cənab Prezident, şagirdlər və valideynlər adından Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, kənd yerində belə bir gözəl məktəb tikdirmisiniz.

**Prezident İlham ƏLİYEV:** Şəhərimizin hər bir yerində məktəblər tikilir, əsaslı təmir olunur, bu proqram uğurla icra edilir. Bu məktəbin yenidən tikilməsi bizim siyasətimizi əks etdirir. Təhsil sahəsinə göstərilən diqqət, eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir. Valideynlərə də, müəllimlərə də salam söyləyin. Sağ olun.



**Məlahət ƏSƏDOVA:** Sağ olun cənab Prezident.

AZƏRTAC

## “Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1652-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1652-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** “Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 3, maddə 169; 2003, N 10, maddə 546; 2007, N 2, maddə 87; 2008, N 8, maddə 719; 2012, N 10, maddə 952; 2013, N 11, maddə 1333; 2014, N 10, maddə 1214, N 12, maddə 1550; 2017, N 9, maddə 1634; 2018, N 5, maddə 968) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 2.1-ci bəndə “Məcəlləsinin” sözündən sonra “18-ci maddəsinin ikinci hissəsinin ikinci, üçüncü və dördüncü abzaslarında,” sözləri əlavə edilsin;

*3.2.* 2.24-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.25-2.27-ci bəndlər əlavə edilsin:

“2.25. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin ikinci abzasında “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;

2.26. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin üçüncü abzasında “orqan (qurum)” dedikdə “Azərsu” Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;

2.27. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin dördüncü abzasında “orqan (qurum)” dedikdə “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 sentyabr 2019-cu il.**

# Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanıda yeni salınan parkda yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 13-də Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dörd ay əvvəl paytaxtın Sabunçu rayonunun Kürdəxanı qəsəbəsinə gələn Birinci vitse-prezident burada görülməsi vacib olan sosial və infrastruktur işlərinin qısa vaxt ərzində həyata keçirilməsi ilə bağlı göstərişlərini vermişdi. Bunlardan biri qəsəbə sakinləri üçün salınan yeni istirahət parkıdır.

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev parkda yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi. Yeni park Zeytunluq adlanan ərazidə yerləşir. Ərazisi 2,6 hektar olan bu istirahət məkanındakı zeytun ağacları 30-35 il əvvəl əkilib. Həmişəyaşıl, insan sağlamlığı üçün faydası hamıya bəlli olan bu qiymətli bitkilərə xüsusi qulluq göstərilib.

Onu da deyək ki, bu vaxta qədər Kürdəxanı qəsəbəsində park olmayıb, ərazi baxımsız vəziyyətdə idi. Bu gündən isə istirahət üçün lazımi şəraitlə təmin edilən yeni park sakinlərin istifadəsindədir. Ərazidə abadlıq işləri aparılıb, “Zeytun” kafesi inşa edilib.

Heç şübhəsiz ki, Kürdəxanı qəsəbəsində yaradılan yeni park sakinlərin sevimli istirahət guşələrindən birinə çevriləcək.

AZƏRTAC







# Birinci vitse-prezident Mehriban Əliyeva Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub

**Sentyabrın 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 nömrəli tam orta məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident əvvəlcə sıralarında məktəbin məzunlarının da olduğu şəhid Kürdəxanı sakinlərinin xatirəsinə ucaldılan abidəyə baxdı.

Qeyd edək ki, 1971-ci ildən fəaliyyətə başlayan bu məktəbin binasında cari təmir işləri 2006-cı ildə aparılıb. İki il sonra - 2008-ci ildə şagird sıxlığı nəzərə alınaraq 300 yerlik əlavə korpus tikilib.

Bu ilin mayında Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə təhsil ocağı yenidən qurulub.

Əvvəllər fənn kabinetləri yararsız vəziyyətdə idi, bu isə tədris prosesinin keyfiyyətinə maneçilik törədirdi. Ancaq yeni tədris ilində bu problem aradan qaldırıldı.






Təhsil ocağının sinif otaqları, fənn kabinetləri, informatika-linqafon otağı, kitabxana, akt və idman zalları ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, hər iki korpusda 47 sinif otağı, 2 informatika və 1 linqafon otağı, kimya, biologiya, fizika fənn kabinetləri, akt, idman və musiqi zalları istifadəyə verilib.

Təmirdən əvvəl məktəb 1150 şagird yerlik olub. Hazırda əlavə sinif otaqlarının artırılması hesabına burada 1200 şagirdin təhsil alması üçün şərait yaradılıb. Təhsil ocağının həyətində yaşıllıq sahəsi salınıb, abadlıq-quruculuq işləri aparılıb. Məktəbin həyətində müasir tələblərə cavab verən qaçış və futbol meydançası da yaradılıb.

**Məktəbin kollektivi ilə görüşüb, onlara yeni dərs ilində uğurlar arzulayan Birinci vitse-prezident Mehriban Əliyeva dedi:**

-Mən bu gün burada olmaqdan çox şadam. Yəqin bilirsiniz ki, cari ilin may ayında hörmətli Telman Əliyev məni öz evinə dəvət etmişdi və həmin ay qızımla Kürdəxanı qəsəbəsində oldum. Çay süfrəsi ətrafında qəsəbədə olan problemlər haqqında geniş söhbət etdik. Həmin vaxt bu məktəbə də baxdım və sakinləri narahat edən məsələlərin aradan qaldırılması üçün lazımi tapşırıqlar verildi. Mən çox şadam ki, 113 nömrəli məktəb qısa bir zamanda, yəni, üç ay ərzində, təmir edilib, amma demək olar ki, müasir səviyyədə yenidən qurulub. Əminəm ki, bu məktəb yeni tədris ilində həm şagirdlərə, həm də onların valideynlərinə xoş bir hədiyyə olacaq.

Məktəb 1971-ci ildə inşa olunub, 2008-ci ildə əlavə korpus tikilib və bu vaxt ərzində bir neçə dəfə təmir də olunub. Amma buna baxmayaraq, çox yararsız vəziyyətdə idi. İndi isə çox gözəl, müasir, bütün lazımi avadanlıqla təmin olunmuş yeni bir məktəbdir. Burada 1200 şagird təhsil ala bilər. Amma mən yenə də sakinlərin xahişini və şagirdlərin 2000-dən çox olduğunu nəzərə alaraq hesab edirəm ki, Kürdəxanı qəsəbəsində yeni bir məktəbin tikintisinə ehtiyac var. Tapşırıqlar verilib və qısa bir zamanda yeni məktəbin tikintisinə başlanılacaq.



Bundan əvvəl gözəl bir parkın açılışında iştirak etdim. Ümumi sahəsi 2,6 hektar olan park vaxtilə Zeytunluq adlanan ərazidə yerləşir. Sakinlərin belə bir xahişi var idi ki, asudə vaxtı keçirmək üçün bu cür bir yer olsa, çox gözəl olar. Artıq müasir, gözəl, tamamilə yenidən qurulmuş park sakinlərin istifadəsinə verilib. Ən vacibi isə odur ki, bütün ağaclar saxlanılıb, heç bir ağac kəsilməyib. Eyni zamanda, müasir işıqlandırma sistemi, uşaqlar üçün oyun meydançası, müasir kafe qurulub. Mən çox şadam ki, biz belə qısa zamanda bu işlərin nəticəsini görürük.

Bu, Azərbaycan Respublikasının Prezidenti tərəfindən aparılan siyasətin nəticələridir. Paytaxtımız Bakı da bu gün dünyanın ən gözəl şəhərlərindən biridir.

Mən çox şadam və sizi təbrik edirəm. Mənim salamlarımı, hörmətimi Kürdəxanı qəsəbəsində yaşayan bütün insanlara çatdırın. Çox sağ olun.

* * *

Ümumiyyətlə, bu gün Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində quruculuq-abadlıq işləri sürətlə gedir. 12 min 200 nəfər əhalinin yaşadığı qəsəbədə qazlaşma uğurla davam edir, yol infrastrukturunun inkişafı ilə bağlı işlər görülür, küçələrin bərpası həyata keçirilir, yeni işıqlandırma sistemi quraşdırılır.

Kürdəxanı sakini Telman Əliyev və məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şirinxanım Abbasova Birinci vitse-prezidentə göstərdikləri diqqətə görə minnətdarlıqlarını bildirdilər.

**Telman Əliyev:** Çox sağ olun ki, təşrif buyurub gəldiniz. Böyük işlər görmüsünüz. Yollarımız çox gözəldir. Çox sağ olun. Allah Sizə, ailənizə cansağlığı versin.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun. Yollar barədə deyə bilərəm ki, qəsəbədaxili 115 küçə, ümumilikdə 70 kilometr uzunluğunda yollar tamamilə yenidən qurulub. Bu da əlbəttə, burada yaşayan insanlar üçün böyük rahatlıqdır.

**Şirinxanım Abbasova:** Hörmətli Mehriban xanım, məktəbimizin kollektivi adından Sizi salamlayırıq, Sizə minnətdarlığımızı bildiririk. Həm sakinlər adından, həm məktəbin pedaqoji kollektivi adından Sizə "Çox sağ olun!" deyirik. Sizin bu böyük işinizi yüksək qiymətləndiririk. Çox sağ olun.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, mənim borcumdur. Bilirsiniz, mən hər zaman insanlarla ünsiyyətdə olmağa və onların problemlərini eşitməyə çalışıram. Bilirsiniz, mən də, cənab Prezident də hər zaman sizin yanınızdayıq. Siz bizim güc mənbəyimizsiniz.

**Şirinxanım Abbasova:** Məktəbin kollektivi adından Sizi əmin edirik ki, Sizin, bax, bu qədər gördüyünüz işlər qarşısında biz də daha böyük səylə çalışacağıq, bütün qüvvə və bacarığımızı gənc nəslin təlim-tərbiyəsinə həsr edəcəyik. Bir daha qəsəbə sakinləri, məktəbin pedaqoji kollektivi adından Sizə öz minnətdarlığımızı bildiririk. Sağ olun, var olun.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC







## Aşqabadda MDB iştirakçı dövlətlərinin strateji iqtisadi əməkdaşlığına dair Bəyannamənin layihəsi müzakirə olunub

**Bu gün Aşqabadda Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının 83-cü iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasın işində Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

İclasda Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Özbəkistan, həmçinin MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak ediblər.



Qeyd edək ki, Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının iclasları MDB iştirakçı dövlətləri hökumətlərinin müavinləri səviyyəsində keçirilir.

MDB İqtisadi Şurasının 83-cü iclası nümayəndə heyətləri başçılarının qısa formatda görüşləri ilə başlayıb. İştirakçılar danışıqların gedişində daha yüksək iqtisadi nəticələr əldə edilməsi istiqamətində birgə fəaliyyətin nəticələrini müzakirə edərək gələcək üçün əməkdaşlığın prioritetlərini müəyyən edib, həmçinin iqtisadi və sosial xarakterli sənədlərin layihələri və təkliflər ətrafında fikir mübadiləsi aparıblar.

Geniş tərkibdə keçirilən iclasda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov tərəfindən irəli sürülən MDB iştirakçı dövlətlərinin strateji iqtisadi əməkdaşlığına dair Bəyannamənin layihəsi müzakirə olunub. Bu sənədin qəbul edilməsi dövlətlərarası əlaqələrin möhkəmlənməsinə kömək edəcək və MDB formatında səmərəli dialoqu inkişaf etdirəcək.

İştirakçılar əvvəllər əldə olunmuş razılaşmaların yerinə yetirilməsinin gedişini, o cümlədən MDB orqanlarının maliyyə təminatı və vahid büdcə siyasətinin həyata keçirilməsini nəzərdən keçiriblər. Tərəflər MDB iştirakçısı dövlətlər arasında iqtisadi və sosial siyasət sahələrində məsləhətləşmələrin aparılmasının səmərəliliyini qeyd edib, habelə Birliyin sosial-iqtisadi əməkdaşlıq üzrə dövlətlərarası və hökumətlərarası strukturlarının fəaliyyətlərinin əlaqələndirilməsinin təkmilləşdirilməsi barədə fikir mübadiləsi aparıblar.

Həmçinin MDB İqtisadi Şurasının nəzdində daimi əsasda fəaliyyət göstərən İqtisadi məsələlər üzrə komissiyanın fəaliyyətinin nəticələri də nəzərdən keçirilib. İclas çərçivəsində 24 sənəd imzalanıb.

MDB-nin icraçı katibi Sergey Lebedev iclasın yekunlarına dair keçirilən mətbuat konfransında tədbirin yüksək səviyyədə təşkil olunduğunu və danışıqların uğurla aparıldığını qeyd edib.

MDB İqtisadi Şurasının növbəti iclası 2019-cu il dekabrın 6-da Moskvada keçiriləcək.

AZƏRTAC

## Türkmənistan-Azərbaycan iqtisadi əməkdaşlığına dair müzakirələr aparılıb

### *Aşqabadda İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın beşinci iclası keçirilib*

**Aşqabadda Türkmənistan-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının beşinci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubovun və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradovun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak edib.



Görüşdə tərəflər Azərbaycan və Türkmənistan arasında qardaşlıq, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan yüksək səviyyəli əməkdaşlığı qeyd ediblər.

Komissiyanın əvvəlki iclasında əldə olunmuş razılaşmaların icrası ilə bağlı fikir mübadiləsi aparılıb. İki ölkənin müvafiq nazirlik və idarələri arasında qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi, habelə işgüzar dairələrin tərəfdaşlığın inkişafı ilə bağlı təkliflər nəzərdən keçirilib.

Tərəflər ticarətin artırılması və müxtəlif profilli müştərək müəssisələrin yaradılması, Bakıda Türkmənistan Ticarət Evinin və Aşqabadda Azərbaycan Ticarət Evinin açılması imkanlarını, Türkmənistan-Azərbaycan işgüzar şurasının yaradılması məsələsini müzakirə ediblər.

Yüksək texnologiyalar və maşınqayırma sahəsində də daxil olmaqla ən yaxşı təcrübə mübadiləsi üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin təşkil edilməsinin zəruriliyi vurğulanıb. Tərəflər iki ölkə arasında avtomobil-bərə və dəmir yolu-bərə xidmətinin yaradılmasında, hava limanları vasitəsilə nəqliyyat əməliyyatlarının aparılması işinin intensivləşdirilməsində də maraqlı olduqlarını bildiriblər.

Görüşdə mədəni və humanitar xarakterli məsələlər də müzakirə edilib. İki ölkə arasında elm, təhsil, idman və turizm sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyi qeyd olunub.

Tərəflər Hökumətlərarası Komissiyanın növbəti iclasının gələn il Bakıda keçirilməsinə dair razılığa gəliblər.

AZƏRTAC

# YAP Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib





**Sentyabrın 13-də Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Qaradağ rayonu Heydər Əliyev Mərkəzində keçirilən müşavirdə çıxış edən Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib. Bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş Nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Hər bir ailə bu artımlardan faydalanır. Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

YAP sədrinin müavini, həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib. Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən Ə.Əhmədov həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. Xaricdə özünü mühacir adlandıranlar müəyyən qüvvələrin maraqlarına xidmət edərək ölkəmizin, dövlət rəhbərliyinin imicinə zərbə vurmağa çalışırlar.

YAP sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Müşavirədə qarşıda duran vəzifələrlə əlaqədar ərazi ilk partiya təşkilatı sədrlərinə müvafiq tövsiyə və tapşırıqlar verilib.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov müşavirədə iştirak edib.

**AZƏRTAC**

# Baş prokuror Qəbələ rayonunda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş prokuror Zakir Qaralov sentyabrın 13-də Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Baş prokuror Zakir Qaralov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 19 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**AZƏRTAC**

# Firudin Ələkbərlinin qətli ilə bağlı istintaq Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb



**Tovuz rayon sakini Firudin Ələkbərlinin qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb.**

Bunu Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov AZƏRTAC-a açıqlamasında deyib.

E.Sultanov bildirib ki, iş üzrə bütün halların tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Azərbaycan-Rusiya İşgüzar Şurasının qarşıdakı dövrdə fəaliyyət istiqamətlərinə dair müzakirələr aparılıb



**İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Rusiya İşgüzar Şurasının idarə heyətinin üzvləri ilə görüşüb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Azərbaycan-Rusiya İşgüzar Şurasının fəaliyyətini müsbət qiymətləndirərək iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın genişləndirilməsində şuranın gördüyü işlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycan-Rusiya İşgüzar Şurasının idarə heyətinin sədri Səməd Qurbanov çıxış edərək iki ölkə sahibkarları arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. Qeyd olunub ki, ötən ilin avqustunda şuranın strukturu və iş formatı tam olaraq yenilənib.

Bildirilib ki, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye, turizm, maliyyə və İKT kimi iqtisadiyyatın müxtəlif sahələrində şuranın fəaliyyəti bundan sonra daha geniş olaraq davam etdiriləcək.

İclasda Azərbaycan-Rusiya İşgüzar Şurasının ötən bir ildəki fəaliyyəti və qarşıdakı dövrdə fəaliyyət istiqamətləri barədə müzakirələr aparılıb.

**AZƏRTAC**

*Rövşən Rzayev:*

# ATƏT-in Minsk qrupu qətiyyətli mövqe nümayiş etdirməlidir



**ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa deputatlarının Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfəri yolverilməzdir. Biz digər üzv dövlətlərin bununla bağlı mövqe bildirmələrini istəyirik.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev jurnalistlərə bildirib.

Komitə sədri qeyd edib ki, Minsk qrupunun həmsədrləri Azərbaycanın işğal altında olan torpaqları ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməli və bu təxribatlara ad verməlidirlər. Heç bir xalq silah gücü ilə digər xalqın müqəddəratını təyin edə bilməz. Azərbaycan torpaqlarının işğal olunması bütün dünyaya bəllidir. Eyni zamanda, bütün beynəlxalq təşkilatlar bilir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan azərbaycanlı əhali etnik təmizlənməyə məruz qalıb və hazırda Dağlıq Qarabağda heç bir azərbaycanlı yaşamır. "Bu gün qaçqın və məcburi köçkün vətəndaşlarımız Azərbaycanın 59 şəhər və rayonunda məskunlaşıblar. Belə olan halda ATƏT-in Minsk qrupunun həmsədrlərinin cinayətkar erməni rejiminin xeyrinə addım atması qəbuledilməzdir. Biz bunu pisləyirik və ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərdən buna mövqe bildirilməsini gözləyirik", - deyə Rövşən Rzayev vurğulayıb.

**AZƏRTAC**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Sentyabrın 13-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Komissiyanın 29 may 2019-cu ildə keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 4 saylı Naxçıvan şəhər, 16 saylı Yasamal ikinci, 26 saylı Sabunçu birinci, 37 saylı Nizami birinci (Gəncə), 40 saylı Kəpəz ikinci (Gəncə), 71 saylı Masallı kənd, 80 saylı İmişli-Beyləqan, 83 saylı Ağcabədi-Füzuli, 93 saylı Bərdə şəhər və 108 saylı Ağstafa seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

**AZƏRTAC**

# Azərbaycan BMT-ni erməni təcavüzünə son qoyulması üçün təcili tədbirlər görməyə çağırır

**Beynəlxalq birlik tərəfindən xəbərdarlıq və qınaqlara, habelə Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizamlanması üçün səylərin davam etməsinə baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərini müstəmləkələrə çevirməyə və ilhaq etməyə yönəlmiş qərəzli hərəkətlər səngimir. Məsələn, işğal edilmiş ərazilərə gəlmə sakinlər yerləşdirilir, həmin ərazilərdəki tarixi və mədəni irs məhv edilir və ya mənimsənilir, istismar və talan edilir, aktivlər, təbii resurslar və digər sərvətlər qanunsuz ticarət obyektlərinə çevrilir. AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev bu fikirləri sentyabrın 12-də BMT Təhlükəsizlik Şurasının illik məruzəsinə (A/73/2) baxılmasına həsr edilmiş Baş Assambleyanın plenar iclasındakı çıxışında söyləyib.**

Yaşar Əliyev öz çıxışında qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 24-cü maddəsinin tələblərinə əsasən, Təhlükəsizlik Şurasının illik məruzələrinin Baş Assambleyada müzakirəsi BMT üzvü olan dövlətlərdən ötrü Şuranın işi barədə fikir mübadiləsi aparmaq və xüsusi diqqət tələb edən problemli sahələri üzə çıxarmaq üçün mühüm platformadır. Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirərkən BMT-nin üzvü olan bütün dövlətlərin adından hərəkət edir. Buna görə də BMT-nin daha geniş auditoriyaya eşidilmək imkanları verilməlidir. Y.Əliyev bəyan edib ki, Azərbaycan bu baxımdan bəzi hadisələri müsbət qiymətləndirir, Təhlükəsizlik Şurasının transparentlik səviyyəsinin, üzv dövlətlərin daha geniş auditoriyası ilə onun qarşılıqlı fəaliyyəti üçün səylərin artırılacağına ümid edir.

Azərbaycanlı diplomat bildirib ki, dünya birliyinin sülhə və təhlükəsizliyə təhdidlərlə üzləşdiyi indiki vaxtda beynəlxalq hüquq qaydalarının möhkəmləndirilməsi və bütün səviyyələrdə səylərin ikiqat artırılması tələb olunur. Bunun üçün beynəlxalq hüququn hamılıqla qəbul edilmiş, dövlətlərarası münasibətləri tənzimləyən norma və prinsiplərinə ciddi riayət edilməlidir. Təhlükəsizlik Şurasının fəaliyyətinin səmərəli olması üçün ilk növbədə onun qərarlarının yerinə yetirilməsi tələb olunur. Bu baxımdan, üzv dövlətlərin öhdəlikləri BMT Nizamnaməsinin 25-ci maddəsində dəqiq şərh edilib. Y.Əliyev vurğulayıb ki, Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq suveren dövlətlərə qarşı qanunsuz güc tətbiq etmək və bununla əlaqədar ərazilər əldə olunması halları davam edir. Lakin bu heç də o demək deyildir ki, belə vəziyyət Şuranın fəaliyyətində məqbul praktika sayıla bilər.

Məlum olduğu kimi, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrində Azərbaycana qarşı güc tətbiq edilməsini, onun ərazilərinin işğal olunmasını, mülki şəxslərə hücumlar edilməsini, Azərbaycanda yaşayış məntəqələrinin bombalanmasını pisləyib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət bəslədiyini, ərazilər ələ keçirilməsi üçün güc tətbiq etməyin yolverilməz olduğunu bir daha təsdiqləyib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Ermənistanın ərazi iddialarına və zorakı hərəkətlərinə cavab olaraq Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmasını təsdiq edib, bütün işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Təhlükəsizlik Şurasının dörd qətnaməsi, habelə Şuranın sədrinin yeddi bəyanatı məhz Ermənistan tərəfindən Azərbaycana qarşı silahlı təcavüzün və Azərbaycan ərazilərinin işğal edilməsinin nəticəsi olub. Bu qətnamələrdə törədilmiş əməllər, bunun nəticəsində yaranmış qeyri-qanuni vəziyyətə son qoyulması üçün öhdəliklərin və vəzifələrin yerinə yetirilməməsi vurğulanır. Ermənistanın hərəkətləri qanunsuz güc tətbiq edilməsi kimi təsnif olunur və onun Azərbaycan ərazilərinə iddiaları tamamilə əsassız hesab edilib. Digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərarlar və sənədlər də eyni kontekstdə tərtib olunub.

Məsələn, münaqişənin nizamlanmasına və bu məqsədlə aparılan danışıqlara kömək etmək tapşırılmış ATƏT-in Minsk qrupu Azərbaycan ərazilərinin tutulması və işğalı ilə əlaqədar öz bəyanatında göstərir ki, güc tətbiq edilməklə hər hansı şəkildə ərazilər əldə edilməsi tanına bilməz və ərazinin işğal olunması beynəlxalq aləmdə tanınmaq və ya hüquqi statusun dəyişdirilməsi üçün istifadə edilə bilməz. Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin rəhbəri vurğulayıb ki, Təhlükəsizlik Şurasının əsas tələbləri indiyə qədər yerinə yetirilməyib və bunun bilavasitə nəticəsi kimi həll edilməmiş münaqişə, onun hərbi və humanitar nəticələri sülhü, təhlükəsizliyi və inkişafı təhdid altında saxlamağa davam edir.

Bu fonda Ermənistanın həmin qətnamələrin aktuallığını azaltmaq, onların məqsədini və məzmununu təhrif etmək cəhdləri müşahidə olunur. Ermənistan münaqişənin nizamlanması prosesinə daim əngəl törədir, mütəmadi olaraq yerlərdə vəziyyəti gərginləşdirməyə və mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş müxtəlif provokasiyalara əl atır. Bu yaxınlarda baş vermiş bəzi hadisələri xatırlamaq kifayətdir.

Keçən ay Ermənistan mənim ölkəmin suveren ərazisi olan Dağlıq Qarabağ bölgəsini ən yüksək səviyyədə Ermənistanın tərkib hissəsi elan edib və beləliklə, Azərbaycanın işğal edilmiş rayonlarını ilhaq etmək planlarını açıqlayıb. Bu, beynəlxalq hüququn və Təhlükəsizlik Şurasının qətnamələrinin kobud şəkildə pozulmasıdır. Bu qətnamədən əvvəl Ermənistan hökumətinin müxtəlif yüksəkvəzifəli üzvləri başqa təhrikçi bəyanatlar səsləndiriblər. Məsələn, Azərbaycana "bircə qarış da olsa torpağın qaytarılmayacağı" barədə bəyanatlar və "yeni ərazilər uğrunda yeni müharibə" barədə hədələr eşidilir.

Ermənistanın Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisi olan Dağlıq Qarabağı və digər işğal edilmiş rayonları müxtəlif uydurma adlar altında təqdim etmək, habelə həmin ərazilərdə qurulmuş qeyri-qanuni oyuncaq rejimi təbliğ və reklam etmək cəhdlərinin də qanuni qüvvəsi yoxdur. Azərbaycanlı diplomat bildirib ki, bu rejimin qeyri-qanuni olması beynəlxalq səviyyədə dəfələrlə bəyan edilib; Yerevan tərəfindən rəhbərlik və nəzarət edilən bu rejim, nəticə etibarilə təcavüzün, irqi ayrı-seçkiliyin və etnik təmizləmənin məhsulundan başqa heç bir şey deyil.

Yuxarıda deyilənlər BMT və daha geniş beynəlxalq birlik tərəfindən təcili tədbirlər görülməsinin zəruri olduğunu təsdiq edir. Y.Əliyev bildirib ki, Azərbaycan ona qarşı davam edən təcavüzlə əlaqədar problemləri daim Təhlükəsizlik Şurasının nəzərinə çatdırır və Azərbaycanın təqdim etdiyi, hesabat dövründə Təhlükəsizlik Şurasının və Baş Assambleyanın sənədləri qismində yayılmış məlumatlar Təhlükəsizlik Şurasının müzakirə edilən məruzəsinin V hissəsinin 4-cü fəslində xatırlanır.

Azərbaycanın BMT yanında diplomatik missiyasının rəhbərinin dediyi kimi, bununla əlaqədar xatırlatmaq yerinə düşər ki, ümumi beynəlxalq hüququn imperativ normaları üzrə öhdəliklərin ciddi pozulmaları əlavə nəticələr doğurur. Buraya, o cümlədən, ciddi pozuntu nəticəsində yaranmış vəziyyətə son qoyulması məqsədilə bu vəziyyətin qanuni hesab edilməməsi, onun davam etməsinə kömək və ya yardım göstərilməməsi yolu ilə dövlətlərin əməkdaşlıq etmək vəzifələri daxildir. Buna görə də beynəlxalq birlik təkidlə tələb etməlidir ki, Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874 və 884 nömrəli qətnamələri yerinə yetirilsin və Ermənistan öz beynəlxalq öhdəliklərinə ciddi riayət etsin.

Mandatı Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan, davam etməkdə olan sülh prosesinin əsas məqsədi işğalçı qüvvələrin Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını, Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün bərpa olunmasını, məcburi köçkünlərin və onların əmlakının qaytarılmasını təmin etməkdən ibarətdir.

Y.Əliyev çıxışının sonunda bildirib ki, bu hədəfə çatmaq zəruri, lakin kompromissiz qərardır. Bu, eyni dərəcədə labüd və aktualdır, çünki qanunsuz güc tətbiq edilməsi və bununla əlaqədar hərbi işğal və Azərbaycan ərazilərinin etnik təmizlənməsi heç vaxt sülh, barışıq və sabitlik gətirməyəcək.

**AZƏRTAC**

# Azərbaycan GUAM-a sədrliyi dövründəki prioritet mövzuları açıqlayıb

**Sentyabrın 13-də Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 50-ci iclası keçirilib.**



GUAM-ın Milli Əlaqələndiricilər Şurasından AZƏRTAC-a bildiriblər ki, iclasda GUAM çərçivəsində siyasi, iqtisadi əməkdaşlığın perspektivləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin gücləndirilməsi məsələləri müzakirə olunub. Qeyd edilib ki, GUAM ölkələri arasında ticarət dövriyyəsi daha da artırılmalıdır. Müzakirələr zamanı 2020-ci il yanvarın 1-dən GUAM-ın sədrliyinin Azərbaycana keçəcəyi vurğulanıb.

Toplantıda Azərbaycanı Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev ölkəmizin sədrliyi dövründəki prioritet məsələlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, enerji təhlükəsizliyi, nəqliyyat, ticarət dövriyyəsi Azərbaycan üçün prioritet mövzulardır.

**AZƏRTAC**

# İmişlidə növbəti görüş və səyyar qəbul

**İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyevin növbəti səyyar qəbul-görüşü keçirildi.**





Yığıncaqda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonun aidiyyəti idarə, müəssisə, təşkilat rəhbərləri və kənd sakinləri iştirak etdi. Tədbirdə Qaragüvəndikli kənd icra nümayəndəsi Fərhad Həsənov çıxış edərək bildirdi ki, hazırda kənddə 330 təsərrüfatda 1612 nəfər əhali yaşayır. Kəndin ümumi torpaq sahəsi 2248 hektardır. Qaragüvəndikli kəndində orta məktəb, həkim məntəqəsi, poçt şöbəsi və digər sosial obyektlər fəaliyyət göstərir. İcra nümayəndəsi qeyd etdi ki, kəndə qaz xətti çəkilərək əhalinin istifadəsinə verilib. Nümayəndəlik ərazisində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədi ilə modul tipli sutəmizləyici qurğu quraşdırılmış və əhalinin ümumi istifadəsinə verilmişdir. Kəndin 4 min metr mərkəzi yoluna asfalt örtük qoyulub, təsərrüfatdaxili suvarma kanallarında və şor kollektorlarında lildəntəmizləmə işləri aparılmış və hazırda bu işlər davam etdirilir. F.Həsənov ölkə Prezidenti cənab İlham Əliyevin kənd sakinlərinə göstərilən diqqət və qayğısını yüksək qiymətləndirərək, görülən abadlıq və quruculuq işlərinə görə kənd sakinləri adından öz minnətdarlığını bildirdi.

Sonra rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev çıxış edərək respublikada və rayonda bugünkü hərtərəfli inkişaf barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar görülən işlər nəticəsində Qaragüvəndikli kəndində də abadlıq və quruculuq işləri aparılmışdır. Rayon rəhbəri qeyd etdi ki, rayonda aqrar sahənin inkişafının nəticəsidir ki, kəndlərdə əhalinin məşğulluğu təmin edilmiş, insanların həyat şəraitləri daha da yaxşılaşmışdır. Vilyam Hacıyev çıxışı zamanı bildirdi ki, bu görüşün məqsədi təsdiq edilmiş qrafikə uyğun cənab Prezidentin tapşırığına əsasən əhali ilə yerlərdə görüşüb, onların problemləri ilə maraqlanmaqdır. Görüş zamanı kənd sakinlərini narahat edən problemləri dinləyərkən kənd sakini Şəhliyar Əsədov kənd ərazisində Sip kabelləşmə işlərinin aparılmasını, Əlağa Məmmədov Boztəpə kanalı üzərindəki keçid körpünün bərpa olunmasının vacibliyini kənd sakinləri adından xahiş etdilər.

Rayon icra hakimiyyətinin başçısı kənd sakinlərinin müraciətlərini dinləyib qaldırılan məsələlərin həlli üçün rayonun müvafiq qurumlarına tapşırıqlarını verdi.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### *Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair*

### Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

## QƏRARI

**29 iyul 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı Apelyasiya Məhkəməsinin hakimi İkram Şirinov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının baş məsləhətçisi Sevinc Rəhimovanın,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlı, Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Zaur Əzimovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin çıxışlarını, ekspertlərin rəylərini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apelyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Ailə Məcəlləsinin (bundan sonra - Ailə Məcəlləsi) 36.9-cu maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 377.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, S.Baxşəliyeva ilə İ.Həmzəyev 28 yanvar 1989-cu ildə nikaha daxil olmuş, birgə nikahdan 1991-ci və 1993-cü il təvəllüdlü iki övladları dünyaya gəlmişdir. 7 may 2007-ci il tarixində onların nikahı məhkəmə qaydasında pozulmuşdur. Lakin nikahın pozulmasından bir ay sonra onlar yenidən barışmış və nikahlarını təkrar qeydiyyata aldırmasalar da, 2018-ci ilin iyun ayına qədər ailə kimi faktiki bir yerdə yaşamış və birgə təsərrüfat aparmışlar. Münasibətləri təkrar pisləşdiyindən S.Baxşəliyeva 17 avqust 2018-ci il tarixində nikahın pozulması haqqında şəhadətnamə almış və 2018-ci ilin avqust ayında məhkəməyə müraciət edərək nikah dövründə əldə olunmuş ümumi birgə əmlakın bölünməsi barədə iddia qaldırmışdır. İddiaçı birgə nikah dövründə, yəni 1999-cu ildə əldə etdikləri və cavabdehin adına qeydiyyata alınmış ikiotaqlı mənzilin hissəsinə onun payının müəyyən olunmasını məhkəmədən xahiş etmişdir. Cavabdeh də iddiaçıya qarşı birgə nikah dövründə, 30 mart 2004-cü ildə əldə edilmiş sonuncunun adına qeydiyyata alınmış dördotaqlı evin hissəsinə onun payının müəyyən edilməsinə dair qarşılıqlı iddia qaldırmışdır. İddiaçı isə Ailə Məcəlləsinin 36.9-cu və Mülki Məcəllənin 375.2-ci maddələrinə istinad edərək qarşılıqlı iddia üzrə iddia müddətinin tətbiqi barədə ərizə vermişdir.

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 27 noyabr 2018-ci il tarixli qətnaməsi ilə iddia və qarşılıqlı iddia qismən təmin edilərək hər iki evdə iddiaçının və cavabdehin hissədə payları müəyyən edilmişdir.

S.Baxşəliyeva Bakı Apelyasiya Məhkəməsinə şikayət verərək birinci instansiya məhkəməsi tərəfindən mübahisəyə tətbiq edilməli olan Ailə Məcəlləsinin 36.9-cu və Mülki Məcəllənin 375.2-ci maddələrinin tətbiq edilmədiyini, Ailə Məcəlləsinin 36.9-cu maddəsində nəzərdə tutulmuş 3 illik iddia müddətinin tətbiqinin zəruri olduğunun nəzərə alınmadığını və bununla da maddi hüquq normasının imperativ tələblərinin pozulduğunu göstərmişdir.

Cavabdeh İ.Həmzəyev apelyasiya şikayətinə etiraz edərək bildirmişdir ki, iddiaçı ilə nikahları 2007-ci ildə pozulmuş, lakin onlar 2018-ci ilin iyul ayına qədər birgə yaşayaraq təsərrüfat apardıqlarına görə iddiaçının istinad etdiyi 3 illik iddia müddəti onların mübahisəsinə şamil oluna bilməz.

Bakı Apelyasiya Məhkəməsi məsələ ilə bağlı məhkəmə təcrübəsində fərqli yanaşmaların olduğunu nəzərə alaraq Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir.

Müraciətedənin qənaətinə görə, mübahisə doğuran və məhkəmə təcrübəsində fərqli yanaşmalara səbəb olan məsələ Ailə Məcəlləsinin 36.9-cu maddəsində müəyyən edilmiş nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə dair 3 illik iddia müddətinin axımının məhz hansı andan hesablanmalı olması ilə bağlıdır.

Belə ki, hüquqtətbiqetmə vəzifəsini həyata keçirən bir sıra şəxslər Ailə Məcəlləsinin 36.9-cu maddəsində nəzərdə tutulmuş müddətin axımının ər-arvad arasında nikahın pozulması anından başlanmalı olduğunu göstərərək, hüquqi mövqelərini ailə hüquq münasibətlərinin xüsusi (sahəvi) qanunla - Ailə Məcəlləsi ilə tənzimlənməsi, həmin Məcəllənin 2.1-ci maddəsinə əsasən bu Məcəllənin ər-arvad arasında olan digər məsələlərlə yanaşı, həm də onların əmlak və qeyri-əmlak münasibətlərini tənzimləməsi, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra - Konstitusiya Qanunu) 10.3-cü maddəsinə görə isə bərabər hüquqi qüvvəyə malik normativ hüquqi aktlar arasında ziddiyyət olduqda sahəvi normativ hüquqi aktın tətbiq olunması ilə əsaslandırırlar.

Digər mövqe isə ondan ibarətdir ki, bu müddətin axımı əks tərəfin hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanmalı, yəni qeyd edilən iddia müddətinin axımının başlanğıc anı Mülki Məcəllənin 377.1-ci maddəsinin tələbləri əsasında müəyyən edilməlidir. Belə ki, Ailə Məcəlləsinin 36.9-cu maddəsi yalnız iddia müddətini müəyyən etmiş, həmin maddədə müddətin axımının başlanması anı təyin edilməmişdir. Qeyd olunan məsələ Mülki Məcəllənin 377.1-ci maddəsi ilə tənzimlənmişdir. Belə ki, həmin maddəyə əsasən, iddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır. O da qeyd olunmalıdır ki, həmin normanın tələbinə görə, orada müəyyən olunmuş qaydalardan istisnalar yalnız Mülki Məcəllə ilə müəyyənləşdirilə bilər. Bu baxımdan Ailə Məcəlləsinin 36.9-cu maddəsi ilə Mülki Məcəllənin müddətlərlə bağlı normaları arasında hər hansı ziddiyyət mövcud deyildir, ziddiyyət olmuş olsaydı belə, Konstitusiya Qanununun 2.5-ci maddəsinə əsasən, Mülki Məcəllənin müvafiq normaları tətbiq olunmalı idi.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələyə aydınlıq gətirilməsi üçün mülkiyyət hüququ və onun məhdudlaşdırılması qaydası, ər-arvadın hüquqi statusu və onların əmlak hüquqları, bununla bağlı yaranan mübahisələrin məhkəmədə baxılması qaydalarını tənzimləyən mülki və ailə qanunvericiliyinin müvafiq normalarının əlaqəli şəkildə təhlil edilməsini zəruri hesab edir.

Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz (Konstitusiyanın 13-cü maddəsinin I hissəsi və 29-cu maddəsinin I, II və IV hissələri).

Hüquqi dövlətdə mülkiyyət hüququ toxunulmaz olmaqla, subyekti qismində bir şəxs, habelə iki və daha çox şəxs çıxış edə bilər. Yəni əmlak eyni vaxtda bir neçə şəxsə məxsus ola bilər və mülki qanunvericilikdə qeyd edilən münasibətlər ümumi mülkiyyətə dair normalarla tənzimlənir.

Mülki Məcəllənin 213.1-ci maddəsinə əsasən, iki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur.

Ümumi mülkiyyətin birgə mülkiyyət və paylı mülkiyyət kimi növləri fərqləndirilir. Belə ki, Mülki Məcəllənin 213.2 və 213.5-ci maddələrinə əsasən, əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər. Birgə mülkiyyət iştirakçılarının razılaşması ilə, razılaşma əldə edilmədikdə isə məhkəmənin qərarına əsasən ümumi əşyaya bu şəxslərin paylı mülkiyyəti müəyyənləşdirilə bilər.

Ümumi mülkiyyət hüququnun yaranmasını şərtləndirən əsaslardan biri də nikahdır. Ər-arvadın ümumi mülkiyyətində olan əmlakın hüquqi rejimi Mülki Məcəllənin 225-ci maddəsi və Ailə Məcəlləsinin 31-37-ci maddələri ilə müəyyən edilir.

Mülki Məcəllənin 225.1-ci maddəsinə görə, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

Ər-arvadın nikah dövründə əldə etdikləri əmlak, bir qayda olaraq, onların birgə mülkiyyətini, yəni payları müəyyənləşdirilmədən ümumi birgə mülkiyyətini təşkil edir.

Ailə Məcəlləsinin 32.1-ci maddəsinə müvafiq olaraq, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir. Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir (Ailə Məcəlləsinin 36.1 və 36.3-cü maddələri).

Ailə Məcəlləsinin 36.9-cu maddəsinə əsasən, nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə 3 illik iddia müddəti tətbiq olunur.

Qeyd olunmalıdır ki, ailə qanunvericiliyində ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə xüsusi iddia müddətinin tətbiqinin nəzərdə tutulması vətəndaşları nikahları pozularkən ümumi əmlakdakı paylarını bölüşdürməyə təşviq etməklə mülki dövriyyənin sabitliyinin təmin edilməsinə, ər-arvadın ümumi əmlakı ilə bağlı gələcəkdə yarana biləcək çoxsaylı məhkəmə mübahisələrinin qarşısının alınmasına yönəlmişdir. Belə ki, nikahın pozulmasından sonra uzun müddət ərzində tərəflərin ümumi əmlakdakı paylarının müəyyən edilməsini və bölünməsini tələb etməməsi tədricən qarşı tərəfdə arxayınlığın, əmlakın tək mülkiyyətçisi olması fikrinin yaranmasına, nəticədə əmlak barəsində təkbaşına sərəncam verməsinə səbəb ola bilər. Bu da əmlaka dair mülkiyyət hüququna malik ərin (arvadın) hüquqlarının pozulması ilə, eləcə də mülki dövriyyənin digər iştirakçılarının (məsələn, ümumi mülkiyyətdə olan əmlakın yeni sahibi) hüquq və mənafelərinin pozulması ilə nəticələnə bilər. Ona görə də ümumi birgə mülkiyyətdəki əmlaka dair adına dövlət qeydiyyatı aparılmış ər və ya arvad özü də nikah pozularkən həmin əmlakla bağlı gələcəkdə yarana biləcək mübahisələrin qarşısının alınması üçün digər tərəfin payının müəyyənləşdirilməsi və bölünməsi tələbi ilə çıxış etməsini gözləmədən belə təşəbbüs irəli sürməkdə maraqlı olmalıdır.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu müvafiq icra hakimiyyəti orqanı və məhkəmələr tərəfindən nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll edilməsinin məqsədəmüvafiqliyinin izah edilməsini tövsiyə edir.

Qanunverici Ailə Məcəlləsinin 36.9-cu maddəsində ər-arvadın ümumi əmlakının bölünməsi haqqında tələbə dair 3 illik iddia müddətini nəzərdə tutsa da, bu müddətin axımının başlanğıcını müəyyən etməmişdir. Lakin Ailə Məcəlləsinin ümumi hissəsinə ailə münasibətlərinə iddia müddətinin tətbiqini müəyyən edən 8-ci maddənin daxil edilməsi ilə iddia müddətinə dair bütün məsələlərin vahid mənbədən tənzim edilməsinə, yəni ictimai münasibətlərin tənzimlənməsinin sabitliyinə nail olunmuşdur.

Belə ki, Ailə Məcəlləsinin 8-ci maddəsinə əsasən, pozulmuş hüquqların müdafiəsi üçün bu Məcəllədə müəyyən olunmuş müddətlər istisna olmaqla, ailə münasibətlərindən irəli gələn tələblərə iddia müddəti şamil olunmur. İddia müddətini müəyyən edən normaların tətbiqi zamanı məhkəmə Mülki Məcəllədə nəzərdə tutulmuş qaydaları rəhbər tutur.

Göründüyü kimi, qanunverici Ailə Məcəlləsinin 36.9-cu maddəsində nəzərdə tutulan ümumi əmlakın bölünməsi haqqında tələblərə 3 illik iddia müddətini tətbiq edərkən, bütün hallarda Mülki Məcəllənin qaydalarının rəhbər tutulmalı olduğunu müəyyən etmişdir.

Ailə Məcəlləsinin 8.2-ci maddəsi imperativ olmaqla blanket xarakterli normadır. Belə normalar başqa hüquq mənbələrinə istinad etməklə konkret ictimai münasibətləri tam və ya qismən digər müvafiq qanunvericilik aktı ilə tənzimləmək məqsədini daşıyır.

Qanunverici konkret hallarda bəzi məsələlərin həllini həmin məsələ ilə bağlı ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktın özü ilə deyil, digər normativ aktla funksional əlaqədə müəyyən etməklə, hüquqi tənzimetmədə təkrarlığa yol verməni aradan qaldırmış olur. Bununla da qanunverici normayaratmada zəruri institutların funksional əlaqəsinə nail olaraq, müxtəlif aspektlərə malik hər bir ictimai münasibətin hüquqi tənzimetməsini təmin edir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələnin iddia müddəti ilə bağlı olduğunu nəzərə alaraq, Mülki Məcəllənin müvafiq normaları ilə bağlı formalaşdırdığı hüquqi mövqelərinin açıqlanmasını zəruri hesab edir.

İddia müddəti institutu mülki dövriyyənin, hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, onların iştirakçılarını intizamlandırmaq, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müddət baxımından vaxtında müdafiəsini və bərpasını təmin etmək məqsədi daşıyır. Belə ki, pozulmuş hüquqların məcburi müdafiəsi üçün ağlabatan müddət məhdudiyyətlərinin olmaması işin baxılması üçün əhəmiyyət kəsb edən sübutların toplanmasının və saxlanmasının lazım olduğunu nəzərə almayan cavabdehlərin və üçüncü şəxslərin qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarardı. Mübahisə tərəfinin ərizəsi əsasında məhkəmə tərəfindən iddia müddətinin tətbiqi mülki mübahisə tərəflərini əsaslandırılmamış çəkişmələrdən qoruyur və eyni zamanda, onları öz hüquqlarını vaxtında həyata keçirmələrinə və müdafiəsinə məcbur edir.

Mülki Məcəllənin 367.1-ci maddəsinə görə, müddət mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxtdır.

Həmin Məcəllənin 372.2-ci maddəsinə əsasən, hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

Mülki Məcəllənin 377.1-ci maddəsinə əsasən, iddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlayır.

Göründüyü kimi qanunverici əmlak və qeyri-əmlak hüquqlarının pozulmasına dair iddia hüququna tətbiq edilən iddia müddətinin axımının başlanmasını şəxsin hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu günlə şərtləndirmişdir.

Şəxsin öz əmlak və ya qeyri-əmlak hüququnun pozulduğunu bildiyi hal elə hüquqi faktdır ki, onu bilməsi şəxsdən asılı olmur. O, müəyyən müddət keçdikdən sonra bu hüquqi fakt barədə hər hansı mənbədən xəbər tutur və hüququnun pozulduğunu bilir.

Şəxsin öz əmlak və ya qeyri-əmlak hüququnun pozulduğunu bilməli olduğu hal isə elə hüquqi faktdır ki, şəxsin bu hüquqi fakt barədə məlumatının olmaması mümkünsüzdür.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, qanun iddia müddətinin axımının başlanmasını obyektiv anla deyil, subyektiv anla əlaqələndirir. Məhz bu andan maddi mənada iddia hüququ əmələ gəlir. Maddi mənada iddia hüququ dedikdə, mülki hüquqların məcburi həyata keçirilməsi imkanı başa düşülür və bu imkan müəyyən müddətlə məhdudlaşır. Prosessual mənada iddia hüququ, yəni pozulmuş hüququn müdafiəsi üçün iddia ilə məhkəməyə müraciət etmək imkanı isə hər hansı vaxtla (anla) məhdudlaşdırılmadan həmişə saxlanılır və mövcud olur.

Göstərilən hüquqi mövqe, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun L.İ.Binnətovanın şikayəti üzrə 2008-ci il 8 may tarixli Qərarında da öz əksini tapmışdır. Həmin Qərarda qeyd olunmuşdur ki, məhkəmə müdafiə hüququ mütləq hüquq olmadığına görə müəyyən şərtlərin mövcudluğunda konkret məhdudiyyətlərə məruz qala bilər. Lakin yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv edə bilməz. Bu məhdudiyyətlər məhkəmələr tərəfindən özbaşına deyil, hüququn təbiətinə uyğunlaşa bilən, müvafiq hüquqa mütənasib şəkildə və eyni zamanda, bu hüququn hüdudları kimi düzgün tətbiq edilməlidir. Subyektiv hüququn həyata keçirilməsi, onun hüdudlarının qanunvericilik səviyyəsində tənzimlənməsi hüquqi müəyyənlik və hüquqi təmin olunma prinsiplərinə xidmət edir. Bu, həmçinin hüququn təmin olunması üçün məhkəmə müdafiə mexanizmlərindən istifadə zamanı ədalət mühakiməsinin obyektiv meyarlarından faydalanmaq imkanı yaradır.

Ailə Məcəlləsinin 8.2-ci maddəsinə əsasən iddia müddətini müəyyən edən normaların tətbiqi zamanı məhkəmə, Mülki Məcəllədə nəzərdə tutulmuş qaydaları rəhbər tutur. Hər hansı bir mülki mübahisənin qanuni həlli baxımından iddia müddətlərinin axımının başlanğıcının müəyyənləşdirilməsi ilə yanaşı, mübahisəyə aid bütün digər hallar da nəzərə alınmalıdır. İddia müddətinin tətbiqi qaydalarına riayət edilməsi üçün, ilk növbədə, nəzərə alınmalıdır ki, iddia etmək hüququ iddianı təqdim etmə və iddianın təmin olunması hüquqlarından ibarətdir. Birinci hüquq məhkəmədən yaranmış mübahisəyə baxılmasını və müvafiq prosessual qaydada həll edilməsini tələb etmək hüququdur. Bu hüququn həyata keçirilməsi hər hansı iddia müddətinin keçməsindən asılı deyil. Buna görə də, iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəməyə iddianı təqdim etmək mümkündür (Mülki Məcəllənin 375.1-ci maddəsi). İkinci hüquq iddia tələblərinin məhkəmə vasitəsilə məcburi şəkildə həyata keçirilməsinin mümkünlüyünü nəzərdə tutur. İddia müddətinin keçməsi məhz bu mümkünlüyün qarşısını alır və məhkəmə tərəfindən iddiadan imtina edilməsinə əsas kimi götürülür (Mülki Məcəllənin 375.2-ci maddəsi).

İddia müddətinin keçməsinə görə iddianı rədd edərkən, məhkəmə əvvəlcə iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmamasını və cavabdeh tərəfindən həmin hüququn pozulub-pozulmadığını araşdırmalıdır.

İddia müddəti pozulmuş hüququn müdafiəsinin müddəti kimi bu müddətin axımının başlanmasına səbəb olan subyektiv hüququn pozulması ilə ayrılmaz surətdə bağlıdır. Buna görə, məhkəmə qabaqcadan iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmaması, subyektiv hüququn pozulub-pozulmaması, cavabdehin bu pozuntunu edib-etməməsi məsələlərini araşdırmadan iddia müddətinin keçməsinə görə iddianı rədd etməkdə haqlı deyil. İddia müddətinin keçməsinə görə iddianı rədd etmiş, lakin subyektiv mülki hüququn pozulması məsələsini həll etməyən məhkəmə aktı daxilən ziddiyyətli və əsassızdır, çünki iddia müddətinin keçməsinə görə məhkəmənin gəldiyi nəticə lazımi əsasa söykənmir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunverici iddia müddətinin axımının başlamasını subyektiv hüququn pozulması ilə əlaqələndirdiyindən, ər-arvadın nikah dövründə əldə etdikləri ümumi əmlakdakı paylarının bölünməsi tələbinə dair iddia müddətinin axımı nikah pozulduğu andan deyil, tərəfin həmin əmlakla bağlı hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanmalıdır.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, məhkəmələr ər-arvadın ümumi əmlakdakı paylarının bölünməsi tələbinə dair iddialara baxarkən müvafiq tərəfin ümumi əmlakla bağlı hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu günü müəyyən etmək üçün işin konkret hallarını ətraflı araşdıraraq müvafiq nəticəyə gəlməlidir.

Məsələyə başqa cür yanaşma, yəni, nikah dövründə ər-arvadın əldə etdiyi ümumi əmlakdakı paylarının bölünməsi tələbinə dair iddia müddətinin axımının nikah pozulduğu andan hesablanması ər-arvadın ümumi əmlakla bağlı mülkiyyət hüquqlarının realizə imkanlarının qeyri-mütənasib və qanunvericiliyin mahiyyətinə zidd məhdudlaşdırılmasına səbəb ola bilərdi.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 220.6 və 221-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 4 aprel tarixli Qərarında göstərmişdir ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda hüquq və azadlıqların, o cümlədən mülkiyyət hüququnun ümumi məhdudiyyətlərinin hüdudları müəyyən olunmuşdur. Mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, qoyulan məhdudiyyətlər həmin hüququn mahiyyətini dəyişməməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə əsasən, heç kəs cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz. Qeyd olunan normanın məzmunundan görünür ki, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələblərinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusiya hüququnun mahiyyətini dəyişməməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 17 və 34-cü maddələrində, eləcə də Ailə Məcəlləsində öz əksini tapmış prinsiplərdən çıxış edərək əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqeyini təkrarlayaraq bir daha qeyd edir ki, Konstitusiyanın 17-ci maddəsinin I hissəsinə müvafiq olaraq, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Konstitusiyanın 34-cü maddəsinin I və II hissələrinə əsasən, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Ailə Məcəlləsinin 2.3-cü maddəsinə əsasən, nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. Həmin Məcəllənin 1.4-cü maddəsində təsbit olunmuş digər mühüm prinsipə əsasən, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır. Beləliklə, qanunvericiliyin imperativ göstərişinə görə, ailə münasibətlərinə könüllü və iradə sərbəstliyi əsasında daxil olan qadın və kişinin nikahı yalnız dövlətin müəyyən etdiyi qaydada rəsmiləşdirildikdən sonra tanınır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinin şərh edilməsinə dair" 2010-cu il 2 noyabr tarixli Qərarı).

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu bir daha vurğulamağı vacib bilir ki, yalnız qanunvericiliyin tələbinə uyğun şəkildə bağlanmış və dövlət qeydiyyatına alınmış nikah dövlət tərəfindən tanınır və belə nikahdan irəli gələn hüquq və vəzifələr, həmçinin əmlak və şəxsi qeyri-əmlak münasibətləri qanuni nikahdan irəli gələn münasibətlər kimi dövlət tərəfindən təminat altına alınır.

Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarı ilə mülki və ailə qanunvericiliyinin müvafiq normalarına verilmiş şərh nəticəsində həmin normaların təcrübi tətbiqində müəyyən dəyişikliklərə səbəb ola biləcəyini nəzərə alaraq, mülki dövriyyənin sabitliyinin, məhkəmə qərarlarının stabilliyinin və nüfuzunun qorunması məqsədi ilə Plenum hesab edir ki, Qərarda əks olunmuş hüquqi mövqelər onun qüvvəyə minməsindən sonra yaranan, habelə məhkəmələrin hazırda icraatında olan mübahisələrə şamil olunmalıdır.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Ailə Məcəlləsinin 8.2-ci maddəsinə müvafiq olaraq, həmin Məcəllənin 36.9-cu maddəsində müəyyən edilmiş 3 illik iddia müddətinin axımı Mülki Məcəllənin 377.1-ci maddəsinə əsasən, ər-arvadın hər birinin ümumi əmlaka olan mülkiyyət hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanır;
- bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən hüquqi mövqedən çıxış edərək müvafiq icra hakimiyyəti orqanına və məhkəmələrə tövsiyə olunsun ki, nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll edilməsinin məqsədəmüvafiqliyi izah edilsin.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 8.2-ci maddəsinə müvafiq olaraq, həmin Məcəllənin 36.9-cu maddəsində müəyyən edilmiş 3 illik iddia müddətinin axımı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsinə əsasən, ər-arvadın hər birinin ümumi əmlaka olan mülkiyyət hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanır.

**2.** Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən hüquqi mövqedən çıxış edərək müvafiq icra hakimiyyəti orqanına və məhkəmələrə tövsiyə olunsun ki, nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll edilməsinin məqsədəmüvafiqliyi izah edilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad ABDULLAYEV.**

N.Nərimanovun anadan olmasının 150 illiyi qarşısında

# Nəriman Nərimanov və milli azadlıq uğrunda mübarizədə Azərbaycan qadınları

*(əvvəli 13 sentyabr tarixli sayımızda)*

Qurultay aşağıdakı məsələləri müzakirə etdi: 1. Beynəlxalq vəziyyət və Şərq xalqları zəhmətkeşlərin vəzifələri, 2. Milli müstəmləkə məsələsi, 3. Aqrar məsələsi. 4. Şərqdə sovetlər. 5. Təşkilati məsələ və s.

Azərbaycan qadını Xavər Şabanova, dağlar diyarı Dağıstanın azad qadını Bulac, milli azadlıq hərəkatının dalğalandığı Türkiyədən gəlmiş Naciyə xanım qurultayın rəyasət heyətinə seçildilər.

Bu, tarixdə ilk böyük hadisə idi. Qadın, Şərq xalqlarının beynəlxalq məclisinin rəyasət heyətində əyləşmişdi. Qurultayda müzakirə olunan məsələlərdən biri də qadın azadlığı məsələsi idi. Neçə illərdən bəri bir sıra Şərq ölkələrində qadın azadlığı uğrunda mübarizə gedirdi. Amma qadın yenə hüquqsuz kölə halında yaşayırdı. Bunu səsləndirən Türkiyədən gəlmiş Naciyə xanım Bakıda keçirilən Şərq xalqlarının birinci qurultayında çıxışında hərarətlə deyirdi: “Şərq qadınları elə bilməyin ki, çadrasını atıb küçələrə çıxmaq hüququ əldə etmək üçün mübarizə aparır... Əsla yox. Əgər siz qadınları öz əməlinizin köməkçiləri etməsəniz, səyləriniz nə qədər güclü də olsa, fayda verməyəcək. Əgər siz Şərqin kişiləri, yenə əski zamanda olduğu kimi qadın taleyindən kənarda dursanız, onda inanın, ölkələrimiz məhv olacaq. Belə olsa, biz əsarətdə qalan məzlumlarla birlikdə öz hüquqlarımız uğrunda ölüm-dirim vuruşlarına girəcəyik və məqsədimizə nail olacağıq...”.

Naciyə xanım danışırdı. O, dünyanın bütün qadınlarına Azərbaycanda olduğu kimi hüquqlar verilməsini tələb edirdi.

Şərq xalqlarının birinci beynəlxalq məclisi rəmzi mənə kəsb edirdi. Geniş xalq kütlələrində azadlıq duyğularını, gələcəyə böyük inamı artırmaq üçün onun böyük əhəmiyyəti vardı.

Hələ zehinlərində bu tarixi məclisin xoş təəssüratının yaşadığı bir vaxta Nəriman Nərimanovun göstərişi və iştirakı ilə 1921-ci il fevralın 8-də Bakıda Azərbaycanın bitərəf qadınlarının Birinci Qurultayı çağırıldı.

Qurultay münasibətilə buraxılan “Zəhmətkeş qadınların yolu” adlı bir günlük xüsusi qəzet N.Nərimanovun qərar və göstərişlərini nümayəndə qadınlara çatdırılırdı. Qəzetdə verilmiş yazılarda qadınların azadlığı uğrunda aparılan mübarizədən, onların üzərinə düşən vəzifələrdən, savadsızlığın ləğv edilməsi və s. məsələlərdən bəhs edilirdi. Qəzetdə N.Nərimanovun qarşıda duran vəzifələrdən bəhs edən məruzəsinin mətni də dərc edilmişdir. Onun bir yerində deyilirdi: “Yoldaş qadınlar, deyirəm ki, inanasınız ki, Şura hökuməti Sizə hürriyyət verir, bu işdə siz ona kömək edəsiniz”.

Salona toplaşan qadınlar ömürlərində ilk dəfə idi ki, belə xoş sözlər eşidir, qayğı və səmimiyyətlə qarşılanırdı.

Azərbaycanın görkəmli dövlət xadimləri Nəriman Nərimanovun, Dadaş Bünyadzadənin, Səmədağa Ağamalı oğlunun və b. çıxışları nümayəndə qadınların gözləri qarşısında yeni işıqlı üfüqlər açırdı. N.Nərimanovun ata qayğısı ilə bisavad qadınların başa düşəcəyi bir dildə qarşıda duran vəzifələr haqqında söylədiyi məruzə sürəkli alqışlarla qarşılandı. Onun hər bir sözü qadınların ürəyindən xəbər verirdi.

Qurultaya gəlmiş nümayəndə qadınlar ömürlərinin ən əziz, fərəhli günündə xatirə olaraq xalqımızın sevimli oğlu Nəriman Nərimanovla birlikdə fotoşəkil çəkdirdilər.

N.Nərimanov Bakıda ilk qadınlar klubunun yaradılmasını bəyənmiş, xalq maarif komissarı D.Bünyadzadəyə tapşırıq verib demişdi: “Bu mədəniyyət ocağının yaxşı gələcəyi var. Xahiş edirəm hər cür köməklik göstərəsiniz”.

İki gündən sonra N.Nərimanovun təşəbbüsü ilə Bakının ən gözəl, əzəmətli binalarından biri — milyoner Murtuza Muxtarovun evi qadınlar klubu üçün verildi. C.Bayramova xatirələrində yazırdı: “... Bakının ziyalı qadınları bu yaraşıqlı binada müsəlman qadınlarının Xeyriyyə Cəmiyyətini yaratmışdılar.



N.Nərimanov və həyat yoldaşı Gülsüm xanım. 1915



N.Nərimanov qardaşı və bacısı uşaqları (soldan) N.Nərimanov, Xanım, Tura, İltifat, Asiya

Hələ məktəbdə oxuyanda müəlliməmiz Rəhilə xanım Hacıbababəyova məni bura gətirir, Xeyriyyə Cəmiyyətinin tədbirlərində iştirak edərdim. Bu gözəl binada müsəlman qadınlarının maarif və mədəniyyət işlərinə kömək üçün xeyriyyə məqsədilə tez-tez bədii gecələr, müsamirələr keçirilirdi. Yadımdadır, Rəhilə xanım bir dəstə çiçək və qutunu mənə verib deyərdi: -Sən gecəyə gələn adamların hər birinin sinəsinə bu çiçəklərdən birini taxarsan, onlar da əvəzində bu qutuya pul atacaqlar...” .

Bu yolla toplanan pullar məktəbli qızların təhsili üçün xərclənirdi.

İlk ictimaiyyətçi qadınlarından Mina xanım Mirzəyeva xatirələrində yazırdı:

“...Qurultaydan bir neçə gün sonra Təzəpir Məscidində qadınların böyük bir yığıncağı oldu. Qadınlar N.Nərimanovu dinləməyə gəlmişdilər. Yığıncaq qurtaranda mən N.Nərimanova yaxınlaşıb ictimai işlərdə qadın azadlığı haqqında danışmaq, işləmək istəyirəm” dedim. O, gülümsəyib mehribanlıqla dedi:

“—Əlbəttə, siz bu cəbhənin önündə getməlisiniz. Qadınlarımız arasında işi Siz görməlisiniz”.

Mina xanıma qadınlar şöbəsində və qadınlar klubunda işləməyi tapşırdılar.

1923-cü ilin oktyabrında Şərq qadınlarının həyatında böyük, həm də sevindirici bir hadisə oldu. Bakıda Şərq aləmində azadlıq carçısı olan “Şərq qadını” jurnalı nəşr edilməyə başladı. Dövrün mübariz qadınları Ayna Sultanova redaktor, Şəfiqə Əfəndizadə, Mədinə Qiyasbəyli, Mina Mirzəyeva, Xanımnaz Əzizbəyova “Şərq qadını” jurnalı redaksiya heyətinə seçildilər. Jurnal ətrafında respublikamızın kəndlərindən, qəzalarından çoxlu müxbir və yazar toplandı.

Azərbaycanın maarif, mədəniyyət, incəsənət aləminə yenicə qədəm qoyan neçə-neçə belə qadının taleyində Nəriman Nərimanov böyük rol oynamışdır. Onlar xatirələrdə, milli mətbuatımızın səhifələrində və kitablarımızda əbədi yaşayırlar.

Yorulmaz tədqiqatçı, publisist, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun qeyd etdiyi kimi, millətini, vətənini doğma anası qədər sevən Nəriman Nərimanovun nəsli Azərbaycan tarixində şərəfli yer tutur. Onun ömür şəcərəsinə göz gəzdirəndə qəlbimiz iftixar və qürur hissilə döyünür.

Azərbaycan mədəniyyətinin, maarifinin, ədəbiyyatının, inqilabi fəaliyyətin elə bir sahəsi yoxdur ki, orada nərimanovların nümayəndəsi olmasın. Bu nəsil xalqımıza Əlimirzə Məmməd oğlu Nərimanov, Müzəffər Əkbər oğlu Nərimanov, böyük dövlət və mədəniyyət xadimi, alovlu publisist, yazıçı, dramaturq Nəriman Nəcəf oğlu Nərimanov kimi şəxsiyyətlər bəxş etmiş, Nabat, Qumru, Asiya, İltifat Nərimanovalar kimi maarifpərvər qadınlar yetirmişdir.

Nəriman Nərimanovun əmisi nəvəsi Əlimirzə Nərimanov (1880-1943) 1901-ci ildə Qori Müəllimlər Seminariyasında təhsil almış, Borçalı qəzasının Qızılhacılı kənd məktəbində müəllim işləmiş, kəndlilər arasında maarifçilik və təbliğat işi apardığı üçün təqib olunmuşdur. 1906-cı ildə İrana getmiş, Tehranda müəllim işləyərkən (1906-1911-ci ildə) Tiflisə qayıtmış, 1921-ci ildə həbs edilmiş, azad olandan sonra pedaqoji və ədəbi yaradıcılığını davam etdirmişdir.

Müzəffər Nərimanov da ömrünü azadlıq uğrunda mübarizəyə həsr etmişdir...

Bu sözləri Gülsüm xanım 1941-ci ildə İngiltərə qadınlarına müraciət məktubunda yazırdı. Onun xalqımız üçün çox əziz olan bir insan - Nəriman Nərimanov haqqında yazdığı xatirələri, məktubları həyəcansız oxumaq olmur.

“Mənim bəxtimə elə bir ömür yoldaşı düşdü ki, bütün həyatım boyu ona minnətdaram. Mən Nəriman Nərimanov kimi bir şəxsiyyətin simasında mehriban, həssas, qayğıkeş ömür yoldaşı, xalqın azadlığı, səadəti uğrunda yorulmaq bilmədən çalışan alovlu bir mübariz insan gördüm. O, həyatının son dəqiqəsinə kimi öz amalından, xeyirxah işlərindən dönmədi. Bizim birgə ailə həyatımızın son anına kimi o, mənim üçün ən əziz dost və müəllim oldu...”.

N.Nərimanov 1870-ci ildə Tiflisdə maarifpərvər bir ailədə dünyaya göz açmışdır. “Anası Həlimə xanımın söylədiyi nağıllar, əmisi Əlimirzənin maraqlı söhbətləri, qardaşı Salmanın dilindən eşitdiyi şeirlər kiçik yaşlarından Nərimanın mənəvi qidası olmuşdur”.

Alicənablıq, xeyirxahlıq, qayğıkeşlik, mərhəmət, vətənpərvərlik kimi insani keyfiyyətlər N.Nərimanovun tərbiyəsində dərin iz qoymuşdur.

N.Nərimanov kiçik yaşlarından elmə, maarifə, mədəniyyətə, ədəbiyyata böyük həvəs göstərmiş, ürəyində azadlıq duyğuları baş qaldırmışdır. O, Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş (1890), Qızılhacılı kəndində müəllimliyə başlamış, doğma xalqının maariflənməsi sayəsində atdığı addımlar, azadlıq, tərəqqi fikirləri onu tezliklə inqilabi hərəkata qoşulmağa sövq etmişdir. İnqilabi fəaliyyətinə görə həbs olunmuş, azadlığa can atan xalqının rəhbəri, yol göstərəni kimi şərəfli bir ömür yaşamışdır. O, Şərqdə çox məşhur olmuş, xalq arasında “doktor Nərimanov” kimi sevilmiş, SSRİ MİK-in sədri vəzifələrinədək yüksəlmişdir.

Lakin bu yol hamar olmamışdır. Onun həyatı, taleyi, böyük ziddiyyətlər, ədalətsizliklər, odlar-alovlar arasından keçmişdir. Bunu N.Nərimanov 1925-ci ildə ölümündən bir qədər əvvəl oğluna yazdığı məktubunda da qeyd etmişdir: “Mənim həyatım qayğılarla dolu olub. İyirmi yaşımdan bəri qardaşımın və bacılarımın ailələrinin yükünü daşımağa başlamışam. Bu 30 il ərzində mən 11 adam böyüdüb tərbiyə etmişəm. Bunlardan 8 qızı ərə vermişəm, 3 oğlanı öz cüzi donluğumla dolandırmışam.

...Əziz oğlum! Əgər mənim həyatımı öyrənsən, yəqin edərsən ki, mən 1925-ci ilədək başqaları üçün yaşamışam”.

N. Nərimanovun həyat yolu gənc Gülsüm üçün əsl məktəb olmuşdur.

Gülsüm xanım (1898-1953) azadlıq carçısı ömür yoldaşının adına layiq olmaq üçün həyatda hər cür çətinliyə dözmüş, hamı kimi sadə geyinmiş, sadə dolanmış, korluq da çəkmiş, ailə qayğıları ilə yanaşı, ictimai fəaliyyət də göstərmiş, qadınlar arasında təbliğat işi aparmış, Bakıda əlillər evi, uşaq bağçası və körpələr evlərinin yaradılması işində səy göstərmişdir.

Gülsüm xanım N.Nərimanovun ədəbi, siyasi, elmi irsinin toplanıb saxlanılmasında böyük iş görmüşdür. O, N.Nərimanovun zəngin arxivini səliqəyə salıb, Bakıya — muzeyə göndərmişdir.

1943-cü ildə yeganə oğlu Nəcəfin müharibədə həlak olması Gülsüm xanımı sarsıtmışdı...

* * *

Nərimanovlar soyadının davamçıları, qardaşı və bacısı uşaqları - Nabat, Qumru, Əlmirzə, Asiya, İltifat, Tura, Xanım, digər qohum-əqrəba və ailə üzvlərinin hər biri nəsil ağacının qol-budaqlarını artırmış, gözəl övladlar tərbiyə etmişlər. Onlar yalnız ailə çərçivəsində məhdudlaşmıyıb, həm də ictimai-mədəni həyatda fəal mövqe tutaraq Azərbaycan maarifinin, mədəniyyətinin inkişafında nəcib xidmətlər göstərmişlər.

Nabat xanım Nərimanova (1890-1975) Azərbaycanın maarifpərvər qadınlarından biri olmuşdur. Onun atası Məhəmməd kişi Tiflisdə mirzəlik edər, maarif və mədəniyyətə rəğbət bəsləyərdi. O, övladlarına savad verib, xalq üçün gərəkli olmalarını arzulayırdı. Amma əcəl buna aman vermədi. Onun bu istəyi Nəriman Nərimanovun diqqəti, qayğısı sayəsində yerinə yetirilmişdi. Əlmirzə Qori Müəllimlər Seminariyasında, Nabat və Qumru H.Z.Tağıyevin ilk müsəlman qız məktəbində oxutmuşdur. Bu qızlar ömürlərinin axırlarına kimi Bakıda pedaqoji işdə çalışmış, Azərbaycanda qadın təhsilinin inkişafında böyük rol oynamışlar.

Qumru Nərimanova (1892-1969) müəllimliklə bərabər, uşaqların həyatından, təlim-tərbiyəsindən bəhs edən didaktik hekayələr yazmış, bunların bir neçəsi “Məktəb” jurnalında dərc olunmuşdur. Pedaqoji işdə xidmətlərinə görə “Lenin ordeni” ilə təltif edilmişdir.

Nəriman Nərimanovun böyük qardaşı Salman (1847-1907) və onun övladları bu soyadın böyük qolunu təşkil edirlər. Onun böyük qızı Asiya Nərimanova (1892-1921) qısa ömür sürsə də, şərəfli müəllim əməyilə neçə-neçə ürəkdə maarifə, mədəniyyətə həvəs oyatmış, Azərbaycanda qadın təhsili sahəsində nəcib xidmətlər göstərmiş ilk maarifpərvər qadınlardan biri olmuşdur.

İltifat Nərimanova 1903-cü ildə Bakıda dünyaya göz açmış, ancaq ana-ata nəvazişini doyunca görməmişdi. O, həmin qəmli günləri xatırlayaraq tərcümeyi-halında yazırdı: “Valideynlərimi xatırlamıram. Atam Salman Nərimanov 1907-ci ildə, anam Səltənət isə 1908-ci ildə vəfat etmişlər. Məni əmim Nəriman Nərimanov tərbiyə edib böyütmüşdür. Mən 1913-cü ildə rus-tatar şəhər qız məktəbinə qəbul olunmuşam və 6 sinif həcmində təhsil almışam. 1918-ci ildə əmim müalicə olunmaq üçün Həştərxana gedəndə bizi də öz ailəsilə aparmışdır. Bir ildən sonra Moskvaya köçmüşük. Mən burada Marinskaya gimnaziyasında təhsilimi davam etdirmişəm...”.

1920-ci il dövlət çevrilişindən sonra N.Nərimanov öz ailəsiylə birlikdə Bakıya qayıtmış, dövlət işlərilə yanaşı, başına yığdığı külfətinin taleyi qayğısına da qalmışdır. 1921-ci ildə İltifat xanım atasının əmisi nəvəsi Qəzənfər adlı nəcib bir gənclə ailə qurmuşdur.

N.Nərimanov gənc, təcrübəsiz aparat işçilərinin səhv, düşünülməmiş işlərini, hərəkətlərini üzlərinə deyir, yeni cəmiyyət quruculuğunda ehtiyatlı olmağı, milli xarakteri nəzərə almağı onlara tövsiyə edirdi. “Çadra məsələsində zorakılığa yol verməк olmaz. Bunun nəticəsi işimizə ziyan vurar. Ər arvadını, qardaş bacısını öldürər... Xalqın heysiyyətinə, namusuna toxunmaq olmaz. Vaxt gələr, çadra özözünə üzlərdən sürüşüb düşər...”.

Məhərrəmlik olanda N.Nərimanov tez-tez məscidə gedər, hətta qənd, çay göndərtdirərdi.

Bir dəfə bacısı Səkinə ondan soruşdu ki, “bolşeviklər axı məscidi qəbul etmirlər?” Nərimanov gülümsünüb cavab verdi: “Eh bacı, sən bilmirsən, mən nə üçün ora gedirəm. Onlar mənə inanırlar. Orada ürək sözlərimi deyirəm...”.

* * *

Xalqımızın vətənpərvər oğlu Nəriman Nərimanov müstəqil dövlətçiliyimizin amal və arzularına həssaslıqla yanaşaraq, gənc Azərbaycan hökumətinə rəhbərlik edərkən odlar yurdumuzun işıqlı gələcəyinə böyük inam bəsləyərək, burnundan uzağı görməyən siyasi avantüristlərə, xain, satqın düşmən ünsürlərə qarşı mübarizə aparırdı.

O, 1924-cü ildə Azərbaycan Pedaqoji Qızlar İnstitutunun ilk buraxılışı münasibətilə fərəhlə deyirdi: “Azərbaycan Şərq üçün bir məktəbdir. Yəni Şərq hazırkı halında qalsa, biz hər cəhətdən ona müəllim olacayıq”.

N.Nərimanovun uzaqgörənliyi təsdiq olundu. Onun və mütəfəkkir maarifçi ziyalı dostlarının, azadlıq, müstəqillik uğrunda mübarizədə həyatlarını qurban vermiş vətən aşiqlərinin, onların ideyalarını Şərq aləmində yerinə yetirən maarifpərvər analarımızın arzuları yaşadı, tərəqqi etdi.

Bu gün müstəqil, azad Azərbaycan dünyanın nümunəvi ölkəsinə çevrilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin müdriklik məktəbini Azərbaycan Prezidenti İlham Əliyev, Azərbaycan qadınlarının şərəfli adını dünyaya tanıdan Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva zəhmətkeş, sülhsevər xalqımızla birlikdə daha parlaq gələcəyə inamla addımlayırlar.

**Sabir GƏNCƏLİ (MƏMMƏDOV).**
**tarix elmləri doktoru.**

# Məqsədimiz təhsilin keyfiyyətini yüksəltməkdir



Bu gün təhsil sahəsində davamlı olaraq islahatlar həyata keçirilməkdədir. Müasir Azərbaycan təhsili özünün zəngin, mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərinə, beynəlxalq təcrübəyə əsaslanaraq daha sürətlə inkişaf etməkdədir. Təhsil hər bir ölkə üçün strateji bir sahədir. Ulu öndərimiz Heydər Əliyev qeyd etmişdir ki, təhsil hər bir millətin gələcəyidir. Təhsilsiz inkişaf ola bilməz. Təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. Son illər təhsil sistemində müasir infranstrukturun yaradılması, yeni məktəblərin tikintisi və ya əsaslı təmiri geniş vüsət almışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə göstərdikləri diqqət və qayğının nəticəsidir ki, ölkə təhsilimiz bu gün öz inkişaf səviyyəsinə görə dünyada bu sahədə inkişaf etmiş dövlətlər sırasındadır.

Son illər Azərbaycanda təhsilin inkişafı ilə bağlı dövlətimiz tərəfindən aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, təhsilin maddi-texniki təchizatı genişləndirilmiş, keyfiyyəti artırılmışdır. Gənc nəslin hərtərəfli biliyə yiyələnməsi üçün respublikanın bütün təhsil ocaqlarında hər cür müasir tipli avadanlıqlar, dərs ləvazimatları mövcuddur. Sevindirici haldır ki, dövlətimizin yaratdığı belə bir şəraitdən istifadə edən təhsil müəssisələri də öz işlərini ən müasir, günün tələblərinə uyğun quraraq yeni-yeni təhsil uğurları əldə edirlər. Son illər BŞTİ-nin tabeliyində fəaliyyət göstərən təhsil ocaqları da əldə etdikləri təhsil göstəriciləri ilə seçilirlər. Yeni tədris ilinin başlanması ilə əlaqədar biz **Səbail rayonu Badamdar qəsəbəsində fəaliyyət göstərən 239 saylı məktəbin direktoru, Əməkdar müəllim və qabaqcıl təhsil işçisi Sədaqət Əzimova** ilə görüşüb məktəbin əldə etdiyi uğurlar barədə məlumat verməsini xahiş etdik. O, bizimlə söhbətində məktəb və qazanılan göstəricilər barədə dedi:

- Azərbaycanda təhsilin inkişafı Prezident İlham Əliyevin qayğısı sayəsində ən prioritet istiqamətlərdən birinə çevrilib. Vurğulamaq lazımdır ki, ölkəmizdə təhsilin ən yüksək səviyyədə inkişaf etdirilməsi, dövlətin və cəmiyyətin qarşıya qoyduğu hədəflər reallığa əsaslanır, cəmiyyətin, ələlxüsus gənc nəslin təhsilə, innovasiyalara böyük marağı var. Ölkəmiz zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malikdir. Təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasını şərtləndirən ən mühüm amillərdən biri təhsil prosesinin inkişaf etdirilməsi, təhsil şəbəkəsinin müasir infranstrukturla təmin edilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikintisi və bu yolla təhsil ocaqlarında kontingent sıxlığının aradan qaldırılmasına, tədris mühitinin optimallaşdırılmasına nail olmaqdan ibarətdir. Bu məqsədlə ölkə başçısı tərəfindən son 16 il ərzində ciddi islahatlar aparılmış, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsil sisteminə diqqətin nəticəsində ölkə üzrə yüzlərlə yeni, ən müasir tələblərə uyğun məktəblər tikilmiş və məktəblərin tikintisi davam etdirilməkdədir, təmirə ehtiyacı olan təhsil ocaqları əsaslı şəkildə təmir olunmuşdur.

Qeyd edim ki, rəhbərlik etdiyim 239 saylı tam orta məktəbdə də şagird sıxlığı mövcud idi. Məktəb tikilərkən 390-400 şagird üçün nəzərdə tutulmuşdur. 2007-ci ildə məktəbin həyətində 840 nəfərlik yeni tədris korpusu tikilmişdir. 2008-ci ildə isə məktəbin binası “Yeniləşən Azərbaycana Yeni Məktəb” layihəsi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təmir edilərək şagirdlərin istifadəsinə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1 sentyabr 2009-cu il tarixli sərəncamı ilə məktəbimiz 2008-2009-cu il tədris ilində “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmuşdur. Hazırda məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 85 pedaqoji işçi məşğuldur, 1060-a yaxın şagird isə təhsil alır. Məktəbimizin müəllim və şagirdləri həm beynəlxalq, həm də şəhər, respublika olimpiada yarışlarında iştirak edir. Müəllimlərimizdən 3 nəfər Əməkdar müəllim, üçü tərəqqi medalına, 5 nəfər isə “Qabaqcıl təhsil işçisi” adına layiq görülüb. Məktəbin 7 məzunu Qarabağ döyüşlərində şəhid olub.

Vurğulayım ki, 2016-2017-ci tədris ilində məktəbin hər iki korpusu Dövlət Proqramı çərçivəsində əsaslı surətdə təmir edilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev məktəbimizdə əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Cənab Prezidentin məktəbdə olması, onun təhsil ocağında yaradılan şəraitlə şəxsən maraqlanması pedaqoji kollektivi daha da ruhlandırmış, təhsilin keyfiyyətinin daha da yüksəldilməsi yolunda daha əzmlə çalışmağa sövq etmişdir.

Bu gün məktəbimizdə şagirdlərin hərtərəfli elm və biliyə yiyələnmələri üçün hər çür şərait mövcuddur. Məktəbdə kimya, fizika, biologiya kabinetləri, 4 kompüter otağı fəaliyyət göstərir, geniş akt zalı və müasir standartlara uyğun idman zalı, idman meydançası vardır. Məktəbimizdə fəaliyyət göstərən “Heydər Əliyev və tarixi həqiqətlər” lektoriyası ulu öndərin irsinin dərindən öyrənilməsi, XX və XXI əsr Azərbaycan tarixinin öyrənilməsində, şagirdlərin dünyagörüşünün genişlənməsində, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Qeyd edim ki, ötən tədris ilində də məktəb kollektivi öz uğurlu fəaliyyətini davam etdirmişdir. Tədbirlər planına uyğun olaraq nəzərdə tutulan işlər həyata keçirilmişdir. Məktəb öz ənənəsinə sadiq qalaraq bütün tarixi günlər, milli bayramlar və digər elmi-kütləvi tədbirlərin yüksək səviyyədə reallaşdırılmasına nail olmuşdur. Və demək olar ki, ötən tədris ilini məktəbimiz üçün uğurlu hesab etmək olar. Hər il olduğu kimi, məktəbimizin şagirdləri keçən ildə də bir çox idman yarışlarında iştirak etmişdir. Onlardan məktəbin şagirdi İbrahim Seyidli Nahid oğlunun İran İslam Respublikasının Mazandaran şəhərində keçirilən Asiya İslam dövlətləri arasında Kiyokşin-karate idman növü üzrə keçirilən turnirdə rəqiblərini məğlub edərək 1-ci yerə layiq görülməsini demək olar. İbrahim Seyidli fəxrlə Azərbaycan bayrağını yüksəklərə qaldırmışdır.

Məktəbimizin məzunları da qəbul imtahanlarında yüksək nəticə göstərərək respublikamızın nüfuzlu universitetlərinə qəbul olmuşlar. Belə ki, məzunlarımızdan 4 nəfəri 600-dən, 5 nəfəri isə 500-dən yuxarı bal toplamışlar. Bunlardan - Zahir Məmmədzadə 632 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsinə, Aytac Cavadova 624 balla ADA Universitetinin Dövlət və ictimai münasibətlər fakültəsinə, Aytac Babazadə 621 balla Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə işi fakültəsinə, İlkin Mustafazadə 600 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibət uçotu və audit fakültəsinə daxil olmuşlar.

Məktəbə hazırlıq işləri artıq tamamlanmışdır. Kitabların paylanması bu günə 95 faizdir. Bu il məktəbin 1-ci sinfinə 90 nəfər uşaq elektron qaydada qəbul olunub. Məktəbə hazırlıqla bağlı BŞTİ-nin təşkil etdiyi bütün kurslarda məktəbin müəllimləri fəal iştirak ediblər. Vakansiya yerləri ilə bağlı məktəbə müraciət edənlərlə söhbətlər aparır və onlara diqqətlə yanaşılır. Bir sözlə, məktəbin kollektivi yeni tədris ilinə tam hazırdır.

**Əli SADIQOV,**
**“Respublika”.**

# Mərkəzi Bank uçot dərəcəsini endirib

**Azərbaycan Respublikası Mərkəzi Bankının idarə heyəti uçot dərəcəsinin 25 baza punktu azaldılaraq 8,25 faizdən 8 faizə endirilməsi haqda qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə 1,75 faizlik diapazonda müəyyən olunub.**

Mərkəzi Bankdan AZƏRTAC-a bildirilib ki, faktiki inflyasiya hədəf diapazonunun ortasından aşağıda qalır, qısamüddətli inflyasiya gözləntilərinin dinamikasında əhəmiyyətli dəyişikliklər müşahidə olunmur. Yenilənmiş proqnozlara görə bu ilin sonuna inflyasiya dəhlizin orta səviyyəsindən bir qədər yuxarı olmaqla hədəf diapazonu (42 faiz) daxilində qalacaq.

Risklər balansının təhlili göstərir ki, xarici amillər daxili amillərə nisbətən ortamüddətli perspektivdə inflyasiya üçün daha böyük təhdid potensialı daşıyır. Xarici amillərə başlıca olaraq qlobal ticarət və valyuta sferalarında olan gərginliklər, qlobal artım perspektivlərinin pisləşdiyi şəraitdə dünya əmtəə bazarlarında dəyişkənliyin artması aiddir. Mərkəzi Bank bu risklərin monitorinqini davam etdirəcək və inflyasiyanı hədəfdə saxlamaq üçün sərəncamındakı alətlərdən adekvat istifadə edəcək.

Faiz dəhlizinə dair növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfə uyğunluğu, daxili və xarici risklərin reallaşmasının inflyasiyaya təsirindən asılı olaraq veriləcək.

## İnflyasiyanın dinamikası

İdarə heyətinin pul siyasətinə həsr olunmuş son iclasından keçən müddətdə qiymətlərin artım tempi azalıb, rəsmi statistikaya görə avqustda illik inflyasiya 2,4 faiz təşkil edib. İnflyasiya komponentlərindən olan ərzaq qiymətləri (4,7 faiz) ümumi inflyasiya səviyyəsini üstələyir, qeyri-ərzaq (1,2 faiz) və xidmətlər isə (0,1 faiz) ümumi inflyasiya hədəfi diapazonunun mərkəzindən aşağıda qalır. Ərzaq qiymətlərinin artım dinamikası qiymətlərə yüksək ötürücülüyü olan dünya bazarında bəzi ərzaq qiymətlərinin bahalaşmasından təsirlənir. Bütövlükdə, həm ümumi inflyasiya, həm də onun komponentləri hədəf diapazonu daxilində formalaşır.

Məcmu tələbin əsas komponenti olan istehlakın canlanması və dünya bazarında bəzi ərzaq qiymətlərinin bahalaşması şəraitində monetar şərait, ikitərəfli və çoxtərəfli məzənnələrdə sabitlik və mövsümi faktorlar inflyasiya proseslərinə stabilləşdirici təsir edir.

Real sektorun monitorinqinin nəticələrinə əsasən avqustda qiymət gözləntilərində ticarət, xidmət və tikinti sektorlarında azalma, qeyri-neft emal sənayesində isə artım müşahidə olunub.

Məcmu tələbin əsas komponentlərindən olan fiskal xərclərin artması və istehlakın genişlənməsi meyilləri şəraitində bu ilin sonuna inflyasiyanın hədəf intervalında (42 faiz) formalaşacağı proqnozlaşdırılır. Ortamüddətli dövrdə inflyasiya səviyyəsi xarici və daxili risklərin reallaşması miqyasından asılı olacaq.

## Monetar şərait

Monetar şərait neytrallığa yaxınlaşmaqda davam edir. İlin əvvəlindən manatla pul bazası 6,6 faiz artıb. Vahid xəzinə hesabı qalığının və Mərkəzi Bankın sterilizasiya portfelinin dəyişimi pul bazasını trayektoriyasını müəyyənləşdirən başlıca amillərdir.

Monetar şəraitin yumuşaldılması pul bazarında formalaşan kredit və depozit faizlərinə azaldıcı təsir göstərməkdədir. Dövlət qiymətli kağızları bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi parametrlərinin dinamikasına paralel şəkildə dəyişir.

## İqtisadi aktivlik

Bu ilin yanvar-iyul aylarında ümumi daxili məhsul real olaraq 2,5 faiz artıb. Qeyri-neft sektorunda artım 3 faiz olub və əsasən ticari sektordan qaynaqlanıb. Real sektorun monitorinqi əsasında hesablanan biznes inam indeksi son ayda qeyri-neft sənayesində artıb, ticarətdə azalıb, xidmət və tikinti sektorlarında isə dəyişməz qalıb.

İstehlakın və qeyri-neft investisiyalarının genişlənməsi şəraitində qabaqlayıcı tsikl göstəricilərinin əksəriyyəti yüksəlməyə meyillidir.

Neft qiymətlərinin cari səviyyəsi (ilin ötən dövründə 65 ABŞ dollar) şəraitində xarici ticarət balansı profisitli olub. İlkin məlumata görə 8 ayda ixrac 5,1 faiz, o cümlədən qeyri-neft ixracı 15,4 faiz artıb, monetar qızıl nəzərə alınmadan qeyri-neft idxalının artım tempi 11,7 faiz təşkil edib.

Profisitli tədiyə balansı şəraitində valyuta bazarında təklif tələbi üstələməkdə davam edir.

Ölkənin strateji valyuta ehtiyatları ilin əvvəlindən 10,5 faiz və ya 4,7 milyard dollar artaraq 49,4 milyard dollara çatıb.

Dünya ərzaq qiymətləri cari ilin əvvəlindən 5,1 faiz, o cümlədən ət məhsulları üzrə 10,7 faiz, süd məhsulları üzrə isə 14,4 faiz yüksəlib (mənbə: BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı).

Bütövlükdə, qlobal iqtisadi aktivliyin zəifləməsi perspektivləri, tərəfdaş ölkələrdə iqtisadi artımın səngiməsi və ixrac qiymətlərinin aşağı düşməsi xarici tələb amillərinə təsir göstərməklə Azərbaycanda iqtisadi artım üçün potensial təhdidlər yarada bilər.

## İnflyasiya riskləri

Qısamüddətli proqnoz horizontunda inflyasiyaya təsir göstərəcək başlıca amil məcmu tələbin əsas komponenti olan istehlakın genişlənməsidir. Fiskal stimulların artdığı və istehlak kreditləşməsində aktivləşmə şəraitində istehlakın və idxalın daha əhəmiyyətli genişlənməsi mümkündür. Fiskal genişlənməyə paralel olaraq pul kütləsinin artımı inflyasiya mühitinə təsir göstərən amillərdəndir.

Ortamüddətli dövrə risk amilləri əsasən xarici sektordan gələ bilər. Qlobal ticarət və valyuta sferasında olan gərginliklərin davam etməsi qlobal iqtisadi aktivliyin zəifləməsi risklərini yüksəldir. Bu şəraitdə son aylar neftin dünya qiyməti üzrə dəyişkənlik diapazonu genişlənib.

Bu qərar sentyabrın 13-də qüvvəyə minir. Mərkəzi Bankın idarə heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı barədə məlumat oktyabrın 25-də ictimaiyyətə açıqlanacaq və bu tarixdə qrafikə uyğun olaraq mətbuat konfransı keçiriləcək.

**AZƏRTAC**

## AZƏRBAYCAN NƏŞRİYYATI

### Mühasibat balansı

VÖEN 1300407191

**31 dekabr 2018-ci il tarixinə**

| Bölmə/ maddə №-si | Bölmə/maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. |
| | **AKTİVLƏR** | | | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | | 23 361 766,62 | | 23 505 960,33 | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | 23 361 766,62 | | 23 505 960,33 |
| 2. | **Qısamüddətli aktivlər** | | | | | |
| 20 | Ehtiyatlar | | 1 246 071,09 | | 1 180 163,20 | |
| 21 | Qısamüddətli debitor borcları | | 223 298,26 | | 1 052 772,48 | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | | 24 539,07 | | 28 554,94 | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | | 2 150,00 | |
| 24 | Sair qısamüddətli aktivlər | | | | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | 1 493 908,42 | | 2 263 640,62 |
| | **CƏMİ AKTİVLƏR** | | | 24 855 675,04 | | 25 769 600,95 |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | | |
| 3. | **Kapital** | | | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | | 4741844,59 | | 4 741 844,59 | |
| 33 | Kapital ehtiyatları | | 20 878 329,48 | | 20 878 329,48 | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | -6 099 100,88 | | -5 650 084,85 | |
| | **CƏMİ KAPİTAL** | | | 19 521 073,19 | | 19 970 089,22 |
| 4. | **Uzunmüddətli öhdəliklər** | | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | | | |
| 5. | **Qısamüddətli öhdəliklər** | | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | | | |
| 53 | Qısamüddətli kreditor borcları | | 5 334 601,85 | | 5 798 782,39 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | | | | 729,34 | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | 5 334 601,85 | | 5 799 511,73 |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | | 5 334 601,85 | | 5 799 511,73 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | 24 855 675,04 | | 25 769 600,95 |

## ELAN

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqlar üçün (Bakı şəhəri üzrə 5 mərkəz, Salyan, Astara şəhər və rayonları üzrə) icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili", "Sağlamlıq imkanları məhdud uşaqların (autizm) sosial və psixoloji reabilitasiyası-4 mərkəz (Bakı şəhəri və regionlar)", "Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzinin yaradılması (Ağcabədi, Şəki rayon və şəhərləri üzrə)", "Görmə imkanları məhdud şəxslər üçün reabilitasiya mərkəzinin fəaliyyətinin təşkili (regionlarda 1 mərkəz)", Sağlamlıq imkanları məhdud uşaqların və digər şəxslərin asudə vaxtının təşkili", "Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün maarifləndirmə tədbirlərinin təşkili", "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə sosial-reabilitasiya xidmətlərinin göstərilməsini nəzərdə tutan layihələrin müstəqil monitorinqi və qiymətləndirilməsi" adlı təkrar müsabiqələr keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, H.B.Zərdabi pr. 80 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri H.B.Zərdabi pr. 80 ünvanına 26 sentyabr 2019-cu il saat 17:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 27 sentyabr 2019-cu il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda keçiriləcəkdir.

**Əlaqə telefonu:** *(012) 434-05-20.*

**Müsabiqə Komissiyası.**

## KOTİROVKA SORĞUSU

Biləsuvar Regional Mədəniyyət İdarəsi 314400 "İstehsalda istifadə olunmayan qeyri-maddi aktivlər" xərc maddəsi üzrə İdarənin tabeliyində olan təşkilatların yeni məlumat bazalarının və informasiya sistemlərinin hazırlanması işlərinin satınalınması.

Sənədlər 23.09.2019-cu il saat 17:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Tender komissiyasının bildirişi

Stol və stulların, sayıcı çantalarının yerləşdirilməsi üçün dəmir rəflərin satınalınması məqsədilə 05.08.2019-cu il tarixdə elan olunaraq elektron satınalma vasitəsilə keçirilmiş açıq tender proseduru üzrə "Həsənoğlu LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmiş və onunla satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## ELAN

3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi xidməti ərazisində yerləşən və balansında olan mənzil fondu binalarında cari təmir işləri aparılması məqsədilə mal-materialın satın alınması üzrə kotirovka sorğusu elan edir.

Potensial imkanı olan iddiaçılar müvafiq məlumatları 16.09.2019-cu il, saat 17:00-a qədər Birliyin Suraxanı rayonu, Əmircan qəsəbəsi, M.Mustafayev küçəsi 4 ünvanında yerləşən inzibati binasından ala bilərlər.

Təkliflər 2 nüsxədə olmaqla 18.09.2019-cu il saat 17:00-dək təqdim olunmalıdır.

**Tender Komissiyası.**

Bakı Xoreoqrafiya Akademiyası
Açıq Tenderə dəvət edir:
Tender 1 (bir) lot üzrə keçirilir:
Lot 1 - Yumşaq inventarların alınması (balet və rəqs geyimləri)

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

İştirak haqqı: 50 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Dövlət Xəzinədarlıq Agentliyi
KOD: 210005
VÖEN: 1401555071
Müxbir Hesabı:
AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22
Bakı Xoreoqrafiya Akademiyası
Hesab: 2178201-002766
VÖEN: 1400151881
Təsnifat kodu: 142340
Səviyyə: 7

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 4.10.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14.10.2019-cu il saat 15:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

Tender Komissiyası.

## BİLDİRİŞ

"Respublika" qəzetinin 31 iyul və 15 avqust 2019-cu il tarixlərində dərc olunmuş elanına əsasən Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Lot-1 Cari təmir işləri, Lot-2 Əsaslı təmir işləri, Lot-3 Kommunal və kommunikasiya xidmətlərinin satınalınması üzrə keçiriləcək açıq tender zərflərin açılış müddəti 04 oktyabr 2019-cu il saat 16:00-dək uzadılır. Açıq tender prossedurunda iştirak etmək üçün iddiaçılar tender sənədlərini 03 oktyabr 2019-cu il saat 17:00 kimi təqdim etməlidirlər.

**Tender Komissiyası.**

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Süleymanlı Bayram Bəhram oğlunun adına verilmiş 15/2000112 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Hüseynov Ələddin Zəbulla oğlunun adına verilmiş 18/030449 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, İkinci Şahsevən kənd sakini Hüseynov Temir İmran oğlunun xüsusi mülkiyyətində olan və həmin kənddə yerləşən fərdi yaşayış mənzilinə və həyətyanı sahəyə verilmiş çıxarış və qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır. (Reyestr nömrəsi 607013027233-10301, qeydiyyat nömrəsi 1714004092, tarix 03.07.2014-cü il).

Ağayev Eldar Malik oğlunun adına Abşeron rayonu, Zirə Tərəvəzçilik-Südçülük Sovxozu ərazisində yerləşən 1.0 ha torpaq sahəsi üzərində olan 1613017204 N-li icarəyə Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş çıxarış (Seriya RX N0304062, qeydiyyat nömrəsi 1613034240, qeydiyyat tarixi 16.11.2013) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Sevil Ələsgər qızının adına məxsus, Quba şəhərində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya MH N 001 80 32 reyestr 303013003626) itdiyi üçün etibarsız sayılır.

## BİLDİRİŞ

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" aşağıdakı işlərin satın alınması üçün təkliflər sorğusu keçirir.

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun təbliğat və təşviqat materiallarının çap işləri.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər lot üçün iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun Bakı şəhəri, Neftçilər prospekti 32 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Teymur Əfəndiyev (telefon: 012-598-01-50)

**İştirak haqqı: 200 manat**
*H/h: AZ67CTRE00000000000002098326*
*VÖEN: 1700202161*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Bankın VÖEN-i: 1401555071*
*Bankın kodu: 210005*
*SWİFT: CTREAZ22*
*M/h: AZ41NABZ01360100000000003944*
*Büdcə səviyyəsinin kodu: F7*
*Büdcə təsnifatının kodu: 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*

*İştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*Qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*Qiymət təklifi dəyərinin 1%-i həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*

*Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*

*İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*Rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti;*

*Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 30 sentyabr 2019-cu il saat 17:30-dək "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun Bakı şəhəri, Neftçilər prospekti 32 ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 oktyabr 2019-cu il saat 12:00-da Bakı şəhəri, Neftçilər prospekti 32 ünvanında yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Milli Geoloji Kəşfiyyat Xidməti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot 1. GEOLOJİ, HİDROGEOLOJİ, GEOFİZİKİ AVADANLIQLARIN EHTİYAT HİSSƏLƏRİNİN, GEOLOJİ MAL VƏ MATERİALLARIN SATINALINMASI.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 manat.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN: 1401555071.*
*Kod: 210005.*
*M/h: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: BİK CTREAZ 22*
*Alan təşkilat: Milli Geoloji Kəşfiyyat Xidməti.*
*VÖEN: 1300269811*
*Hesab: AZ03CTRE00000000000002197602*
*Büdcə təsnifatının kodu: 142319*
*Büdcə səviyyəsinin kodu: 3*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*3. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvezitləri;*

*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 03.10.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 14.10.2019-cu il saat 15:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov Azəriqaz İstehsalat Birliyi Gəncə Regional Qaz İstismar İdarəsinin rəisi Fariz Məmmədova, atası**

**RZA MƏMMƏDOVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Yevlaxdan Qoca Səmədov Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin sektor müdiri Aybəniz Novruzovaya, həyat yoldaşı**

**ƏLƏDDİN QASIMOVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
13.09.2019